**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “POSTNEFT MƏRHƏLƏSİNDƏ İNSAN KAPİTALININ FORMALAŞMASI VƏ İNKİŞAFININ DÖVLƏT MEXANİZMİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ PRİORİTETLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Əmrahova Səma Aqil qızı**

**BAKI - 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**

**____________________imza**

**"___" ____________ 2020-ci il**

# "POSTNEFT MƏRHƏLƏSİNDƏ İNSAN KAPİTALININ FORMALAŞMASI VƏ İNKİŞAFININ DÖVLƏT MEXANİZMİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ PRİORİTETLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060404 - İqtisadiyyat

**İxtisaslaşma:** Makroiqtisadi siyasət

**Qrup:** 64


**Magistrant:**

**Əmrahova Səma Aqil qızı**

**___________________imza**

**Elmi rəhbər:**

**i.ü.f.d., b/m. Quliyev Vüsal Mübariz oğlu**

**_____________________ imza**

**Proqram rəhbəri:**

**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**

**_____________________ imza**

**Kafedra müdiri:**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**_____________________ imza**


**BAKI - 2021**

**Elm andı**

Mən, Əmrahova Səma Aqil qızı and içirəm ki, “Postneft mərhələsində insan kapitalının formalaşması və inkişafının dövlət mexanizmi və onun təkmilləşdirilməsi prioritetləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tamamilə riayət etməklə və istifadə etdiyim mənbələrin hamısını ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# POSTNEFT MƏRHƏLƏSİNDƏ İNSAN KAPİTALININ FORMALAŞMASI VƏ İNKİŞAFININ DÖVLƏT MEXANİZMİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ PRİORİTETLƏRİ

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: İnsan kapitalı, bir insanın iqtisadi dəyər qazanan, bir şəkildə iş görmə qabiliyyətinə kömək edən bilik, bacarıq, təcrübə və sosial keyfiyyətlərin məcmusudur. Həm işəgötürənlər, həm də işçilər insan kapitalının inkişafına əhəmiyyətli investisiyalar qoyurlar. İnsan kapitalı nəzəriyyəsi insan kapitalına qoyulmuş investisiyanın həqiqi dəyərini ölçmək üçün bir səydir və insan resursları sahəsi ilə sıx əlaqəlidir. Təhsil və səhiyyə insan kapitalını artıran və eyni zamanda birbaşa iqtisadi böyüməyə kömək edən vacib xüsusiyyətlərdir. İnsan kapitalı nəzəriyyəsi təkcə təhsil və təlimlə deyil, həm də işçi qüvvəsinin məhsuldarlığını və keyfiyyətini artıraraq gələcək gəlir səviyyəsini artıran hər cür fəaliyyətlə əlaqələndirilir. Bu baxımdan, məsələn, səhiyyə və miqrasiya ilə əlaqəli xərclər insan kapitalına yatırım kimi qəbul edilir. Bir ölkənin iqtisadi inkişafına aparan yol insan kapitalının inkişafı ilə əlaqədardır.**

**Tədqiqatın məqsədi: Azərbaycan Respublikasında postneft mərhələsində insan kapitalının formalaşması, onun inkişafının dövlət mexanizmi və tənzimlənməsi prioritetlərini müəyyən etməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Araşdırmada, əsasən, statistik təhlil, müqayisəli təhlil metodlarından istifadə olunaraq, son on il üzrə insan kapitalının inkişafı prosesi araşdırılmışdır.**

**Tədqiqatın informasiya bazası: Azərbaycanda insan kapitalının formalaşması istiqamətində aparılmış tədqiqatlardan ərsəyə gələn məqalələr, jurnallar, beynəlxalq əhəmiyyətli hesabatlar, kitablar və digər nəşrlər araşdırmanın əsasını təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: COVİD-19 pandemiyası səbəbi ilə kitabxanalara müraciət etməyin mümkünsüzlüyü, eyni zamanda, yerli mənbələrin əlçatanlılığının zəifliyi əsas məhdudiyyətlərdir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Qeyri-neft sektoru vasitəsi ilə insan kapitalının ölkə iqtisadiyyatının möhkəmləndirilməsindəki əhəmiyyəti müəyyənləşdirilmişdir.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Tədqiqatdan çıxarılan nəticələrə bu və ya digər araşdırmalar zamanı mənbə olaraq, müraciət edilə bilər.**



***Açar sözlər: İnsan Kapitalı, Təhsil, Səhiyyə, İqtisadi inkişaf***

## STATE MECHANISM OF FORMATION AND DEVELOPMENT OF HUMAN CAPITAL IN THE POST-OIL STAGE AND PRIORITIES FOR ITS IMPROVEMENT

### SUMMARY

**The actuality of the subject: Human capital is a set of knowledge, skills, experience and social qualities that contribute to a person's ability to do business in a way that gains economic value. Education and health are important features that increase human capital and at the same time directly contribute to economic growth. Human capital theory is associated not only with training and education, but also with any activity that increases future income levels by increasing the productivity and quality of the workforce. In this regard for example, expenditures related to health and migration are considered as investments in human capital.**

**Purpose and tasks of the research: It is to determine the formation of human capital in the post-oil stage in Azerbaijan, the state mechanism of its development and the priorities of regulation.**

**Used research methods: The study examines the process of human capital development over the past decade, mainly using statistical analysis and comparative analysis methods.**

**The information base of the research: Articles, magazines, reports of international, books and other publications based on research on the formation of human capital in Azerbaijan form the basis of the research.**

**Restrictions of research: The main limitations are the inability to access libraries due to the COViD-19 pandemic as well as weak access to local resources.**

**The novelty and practical results of investigation: The importance of human capital in strengthening the country's economy through the non-oil sector has been identified.**

**Scientific-practical significance of results: The results of the research can be used as a source in this or that research.**

***Keywords: Human Capital, Education, Health, Economic Development***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **Aİ** | Avropa İttifaqı |
| **AYİB** | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| **ARHP** | Azərbaycan Respublikası Hesablama Parlamenti |
| **ARDSK** | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **COFACE** | Compagnie Française d'Assurance pour le Commerce Extérieur |
| **DOST** | Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi |
| **EBRD** | European Bank for Reconstruction and Development |
| **İİİ** | İnsan İnkişafı İndeksi |
| **İKT** | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| **İTSDA** | İcbari Tibbi Sığorta Dövlət Agentliyi |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **MEİS** | Mərkəzi Elektron İnformasiya Sistemi |
| **MHİ** | Məcburi Tibbi Sığorta |
| **KQİ** | Korrupsiya Qavrama İndeksi |
| **OECD** | Organisation for Economic Co-operation and Development |
| **PİSA** | Programme for International Student Assessment |
| **UEQT** | Uşaqların erkən qayğısı və təhsili |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜSY** | Ünvanlı Sosial Yardım |
| **ÜST** | Ümumdünya Səhiyyə Təşkilatı |

# MÜNDƏRİCAT

**GİRİŞ ........ 8**

**I FƏSİL. İNSAN KAPİTALININ MAHİYYƏTİ VƏ ONUN FORMALAŞDIRILMASI ........ 13**

1.1. İnsan kapitalının mahiyyəti və ona tarixi yanaşmalar ........ 13

1.2. İqtisadiyyatda insan kapitalı və onun əsas xüsusiyyətləri ........ 20

1.3. İnsan kapitalının inkişaf amilləri və qiymətləndirmə göstəriciləri ........ 26

**II FƏSİL. İQTİSADİYYATDA İNSAN KAPİTALINA İNVESTİSİYA QOYULUŞLARININ TƏSİRİ İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ ........ 35**

2.1. İqtisadiyyatda insan kapitalına təsir edən amillərin təhlili ........ 35

2.2. İnsan kapitalına investisiya qoyuluşlarının təsiri imkanlarının qiymətləndirilməsi ........ 48

**III FƏSİL. AZƏRBAYCANDA İNSAN KAPİTALININ İNKİŞAFININ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MÖVCUD VƏZİYYƏTİ, ƏSAS İSTİQAMƏTLƏRİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİNİN PRİORİTETLƏRİ ........ 56**

3.1. İnsan kapitalının inkişafına təsir edən iqtisadi sahələrin inkişafı və onun keyfiyyətinin yüksəldilməsi istiqamətləri ........ 56

3.2. Azərbaycanda postneft mərhələsində insan kapitalı inkişafının dövlət mexanizmi ........ 67

3.3. Postneft mərhələsində insan kapitalının inkişafında dövlət tənzimlənməsi təkmilləşdirilməsinin prioritetləri ........ 74

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........ 78**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........ 80**

**ƏLAVƏLƏR ........ 86**

Cədvəllərin siyahısı ........ 90

Sxemlərin siyahısı ........ 90

Qrafiklərin siyahısı ........ 90

Şəkillərin siyahısı ........ 90

# GİRİŞ

**Tədqiqatın aktuallığı:** Müstəqilliyimizi əldə etdikdən sonra Azərbaycanda sosializmdən kapitalizmə keçidin baş verməsi ilə insan kapitalının inkişafı, onun formalaşması prosesi əsas hədəflərdən biri olmuşdur. Yenilik tələb edən iqtisadi şəraitdə ictimai istehsalın forması, onun texnoloji vəziyyəti də əsaslı dəyişikliklər istəyir. İnsan kapitalına yatırılan investisiyalar bu gün daha çox əhəmiyyət kəsb edir. Çünki, insan kapitalının inkişafı milli iqtisadiyyatın quruluşunun yaxşılaşmasına, mal və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, beynəlxalq təşkilatların siyahılarında yüksək nəticələrə sahib olmağa imkan verir. İnsanın intellektual potensialı öz əhəmiyyətini biliklərin istehsal edilməsi, onların ötürülməsi metodu ilə ortaya çıxarır. Elə buna görə də bir çox tədqiqatçı insan kapitalını postindustrial cəmiyyətin bütün sərvətlərindən ən dəyərlisi kimi qiymətləndirmişlər. Çünki, demək olar ki, bütün ölkələrdə intellektual kapital iqtisadiyyatın artım tempini, ölkədəki elmi texniki tərəqqinin vəziyyətini müəyyənləşdirir. Nəticədə cəmiyyətdə təhsil sisteminə, hansı ki, insan kapitalının əsasını təşkil edir marağı artırır.

Son dövrlərdə ölkəmizdə prioritet hədəflərdən biri olaraq insan kapitalının inkişaf etdirilməsi, onun böyüməsi durur. İqtisadi qərarlar qəbul edilərkən, islahatlar keçirilərkən əsas amil olaraq bu kapitalın fasiləsiz inkişafı, onun vasitəsilə əmək məhsuldarlığının artırılması nəzərə alınır. Sonda bütün iqtisadi inkişafda onun rolunun genişlənməsi şərtləndirilir. Bu iki istiqamətdə həyata keçirilir. Birinci olaraq təhsilin bütün səviyyələrində keyfiyyəti təmin edən xüsusiyyətlər yüksəldilməlidir. İkincisi isə əhalinin əmək məhsuldarlığının artırılması üçün insan kapitalının fasiləsiz olaraq inkişaf etdirilməsi, onun öyrənilməsi, daha geniş sahədə tətbiq edilməsi üçün investisiya qoyuluşlarının stimullaşdırılmasıdır.

Bu, Azərbaycanda insan kapitalının formalaşmasının, onun rəqabət qabiliyyətinin yüksəldilməsi imkanlarını əks etdirir. Qısa və orta zaman çərçivəsində Azərbaycan bu imkanlardan səmərəli istifadə etməklə ölkədə insan kapitalının inkişaf etdirilməsinə, onun rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə nail ola bilər.

Əvvəlki illərdə ölkəmizdə insan kapitalının formalaşmasına, onun inkişafına töhvə verən çoxlu tədbirlər həyata keçirilmişdir. Təsadüfi deyildir ki, indidə konsepsiyalarda, həyata keçirilən bir neçə strategiyalarda və dövlət proqramlarında bu kapitala ilk sıralarda yer verilmişdir. “Azərbaycan 2020: Gələcəyə baxış” konsepsiyası, bununla yanaşı “AR təhsilin inkişafı üzrə Dövlət Strategiyası” bunun prioritet nümunələrindəndir. Burada insan kapitalının iqtisadiyyata tətbiq edilməsi, onun bilik və innovasiyalara söykənməsi, hərtərəfli həyat rifahının yüksəldilməsi ilə bağlı tədbirlər nəzərdə tutulur. Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsinə, əlverişli biznes mühitinin yaradılmasına, iqtisadiyyatın diversifikasiyasına və insan kapitalının inkişafına dair islahatlar həyata keçirilir. Bu islahatların uzunmüddətli dövrdə həyata keçirilməsi, genişləndirilməsi təhsilin keyfiyyətinin yüksəldilməsi, infrastuktur və onun quruluşunun təkmilləşdirilməsi, “elm-təhsil-istehsalat” münasibətlərinin idarə edilməsi üçün sürətli idarəetmə mexanizminin yaradılması, həmçinin şirkətlərin beynəlxalq arenaya inteqrasiyası üçün olduqca önəmlidir.

İnsan kapitalının formalaşdırılmasında ali təhsil mühim mərhələ hesab olunur. O özünü iki formada göstərir: ilk növbədə peşəkar, ixtisaslı mütəxəssislərin hazırlanmasında, ikincisi isə yeni bilik və bacarıqların meydana gəlməsində, iqtisadiyyata tətbiqində və ötürülməsində. Buradan da belə qənaətə gəlmək olur ki, insan kapitalının formalaşması, onun inkişafı Azərbaycanda yaxın və uzaq gələcəkdə diqqət mərkəzində olacaqdır. İnsan kapitalının inkişafı üçün ölkəmizdə mühim imkanlar vardır. Bu məqsədlə iqtisadi sahələri təhsil, səhiyyə və digərlərini maliyyələşdirən bir sıra fondların yaradılması, texnika-texnologiyaların təkmilləşdirilməsi, informasiya əlçatanlılığının təmin edilməsi zəruridir. Bu da bizə imkan verir ki, bu mövzunun hərtərəfli öyrənilməsinin vacibliyi qənaətinə gələk.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** İndiyə kimi insan kapitalının inkişaf etdirilməsi, onun inkişaf etdiriləsi istiqamətində yaranan bir çox problemlərin müəyyən edilməsi, onların aradan qaldırılması, insan potensialının mövcud iqtisadi və institusional mexanizmi və bu kimi digər məsələlərlə bağlı çoxlu

məqalələr, bu mövzunu əhatə edən kitablar, dissertasiya işləri yazılmış, müsahibələr keçirilmiş, hesabatlar tərtib edilmiş, eləcə də qərarlar dərc olunmuşdur.

İnsan kapitalının inkişafı istiqamətində yaranan problemlər, onların müxtəlif aspektləri hər zaman dünya ölkələrinin görkəmli alimlərinin, tədqiqatçılarının tədqiqat obyekti olmuşdur. Onlara iqtisadiyyatın banisi Adam Smit, J. R. McCulloch, Heri Bekker, Brian Keeley, Leon Walras, Y.V. Savelsky, A.İ.Dobrinın, S.A.Kristineviç, N.A.Bazılev və s. misal göstərə bilərik.

Ölkəmizdə isə bu mövzu ilə bağlı A.H.Tağıyev, İ.A.Aslanzadə, İ.H.İbrahimov, E.R. İbrahimov, S.D.Məmmədova, K. İmanov, M. Quluzadə və s. kimi iqtisadçıların kitablarını, məqalələrini, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ə. Muradovun, hazırki Təhsil naziri E. Əmrullayevin, İqtisadiyyat naziri M. Cabbarovun çıxışlarını və bir neçə bu istiqamətdə yazılmış dissertasiya işlərini misal göstərə bilərik. Bütün bunlarla yanaşı, Azərbaycanın Strateji Yol Xəritəsi və "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında da insan kapitalının inkişafına dair araşdırmalar aparılmışdır. Ölkədə 2018-ci ildən etibarən Dünya Bankı tərəfindən insan kapitalının inkişafı üzrə yüksək səviyyəli forum fəaliyyətə başlayıb.

Hər il "Dünya bankı" (World Bank) tərəfindən "İnsan kapitalı indeksi" (Human Capital İndex), onun indikatorları istiqamətində illik hesabatlar hazırlanır. İndeks hansı ölkələrin vətəndaşlarının bütün iqtisadi və digər potensialını cəlb etməkdə daha yaxşı olduğunu və hər bir ölkənin təhsil və səhiyyə çatışmazlığı tərəfindən nə qədər kapital itirdiyini ölçür.

**Tədqiqatın məqsədi və vəzifələri:** Tədqiqatın məqsədi postneft mərhələsində insan kapitalının formalaşması, inkişafının dövlət mexanizmi və tənzimlənməsi prioritetlərini müəyyən etməkdir.

Qarşıya qoyulmuş hədəfə uyğun olaraq aşağıdakı tədqiqat vəzifələri müəyyən edilmişdir:

- İnsan kapitalını formalaşdırmaq, onun inkişaf yollarını müəyyənləşdirmək;
- İnsan kapitalının inkişafına təsir edən amilləri qiymətləndirmək;
- İnsan kapitalının inkişafında beynəlxalq təcrübəni əks etdirmək;

- İnsan resurslarına cəlb edilən maliyyə vəsaitlərinin, investisiyaların mahiyyəti və tərkibini təhlil etmək;

- Azərbaycanda insan kapitalının inkişafı məqsədi ilə yaradılmış fondların formalaşdırılması və investisiyaların cəlb edilməsi yollarını aşkar etmək;

- Postneft mərhələsində insan kapitalının formalaşmasının dövlət mexanizmini müəyyənləşdirmək.

**Tədqiqat obyekti və predmeti:** Dissertasiya işinin obyekti kimi insan kapitalının iqtisadi sahələr üzrə inkişafının təmin edilməsi, onun maliyyələşdirilməsi problemləri çıxış edir. Predmeti isə postneft mərhələsində insan kapitalının tənzimlənməsi mexanizmidir.

**Tədqiqatın metodları:** Tədqiqat zamanı analiz, sintez, induksiya, deduksiya metodlarından istifadə olunacaqdır. İlkin olaraq insan kapitalının fəaliyyəti, onun səmərəliliyi və inkişaf yollarının tədqiqi nəzəri baxımından analiz ediləcəkdir. Bu istiqamətdə insan kapitalının inkişafına aid jurnal və bülletenlərə, İnternet resurslarına, monoqrafiyalara, elmi nəşrlərə, eyni zamanda yerli və xarici alimlərin elmi əsərlərinə müraciət olunacaqdır. İqtisadi təhlil, müqayisəli təhlil, tarixi yanaşma, məqsədli proqram və proqnoz, statistik təhlil metodları və həmçinin qruplaşdırma və ümumiləşdirmə kimi digər metodlardan da istifadə ediləcəkdir.

**Tədqiqatın informasiya bazası:** Dünyada və Azərbaycanda iqtisadçı alimlərin və mütəxəssislərin əsərləri, elmi-nəzəri tədqiqatları, Azərbaycan Respublikasının Prezidentinin qəbul etdiyi fərman və sərəncamlar, Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar, o cümlədən bu sahəyə aid edilən digər normativ hüquqi aktlar, insan kapitalının inkişafına dəstək olan dövlət proqramları, internet resursları və s. əhatə edir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat işinin məhdudiyyətliliyini səciyyələndirən əsas meyar daha geniş informasiya bazasının olmamasıdır. Bundan əlavə son illərin statistik göstəricilərinə əlçatanlıq istənilən həddə deyil.

Mövzu ilə bağlı mənbələr, əsasən, xarici resurslardır. Azərbaycan dilində nəşr olunan və ya internetə yerləşdirilən kitablar demək olar ki, yox səviyyəsindədir. COVİD-19 ilə bağlı olaraq kitabxanaların xidmət göstərə bilməməsi, online

kitabxanalarda olan kitabların isə nisbətən köhnə kitablar olması xarici mənbələrə daha çox müraciət etməyə səbəb olur.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- İnsan kapitalının formalaşmasına, onun inkişafına daxili və xarici investisiyaların cəlb edilməsi, onun vacibliyi müəyyən edilmişdir;
- İnsan kapitalının inkişafının digər iqtisadi sahələrə təsiri mexanizmi, maliyyə vəsaitlərinin cəlb edilməsi yolları müəyyən olunmuşdur;
- Postneft mərhələsində insan kapitalının formalaşması, onun mövcud vəziyyətinin təhlili qiymətləndirilmişdir;
- İnsan kapitalının formalaşdırılması və onun inkişafını təmin edən maliyyələşdirilməsinin başlıca istiqamətləri müəyyən edilmişdir;
- Postneft mərhələsində investisiyaların qeyri-neft sektoruna yatırılmasının prioritet istiqamətləri müəyyən olunmuşdur;
- Ölkənin iqtisadiyyatının gücləndirilməsində insan kapitalının rolu, qeyri-neft sektorunun əhəmiyyəti əsaslandırılmışdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın praktiki əhəmiyyəti olaraq, insan kapitalının formalaşmasının əsas müddəaları, aparılan tədqiqatdan ortaya çıxan nəticələr təsərrüfat subyektlərinin və iqtisadi sahələrin inkişafını əsaslandıracaq, bu istiqamətdə daha keyfiyyətli və yeni mərhələyə qədəm qoymağa köməklik edəcəkdir.

# I FƏSİL. İNSAN KAPİTALININ MAHİYYƏTİ VƏ ONUN FORMALAŞDIRILMASI

## 1.1. İnsan kapitalının mahiyyəti və ona tarixi yanaşmalar

Bir insanı istehsal amili kimi müəyyən etmək üçün iqtisadiyyat elmində bir sıra anlayışlar vardır. Bunlara "iş gücü", "insan amili" və "əmək ehtiyatları" kimi anlayışları göstərmək olar. Hər bir konsepsiya insanın istehsaldakı rolunu ayrıca əks etdirir. Lakin "insan kapitalı" anlayışı fərqlənir. Bu termin ilk dəfə formalaşanda əksər elm adamları üçün qəbuledilməz idi. Çünki, onlar maşın səviyyəsinə qədər bir insanın əhəmiyyətinin yüksəlməsini təsəvvür edə bilmirdilər.

Müasir iqtisadçıların tərifindəki insan kapitalı intellektual həyat sahələrinin, şəxsiyyət potensialının məcmusunun və onun səriştələrinin birləşməsinə əsaslanır. Eyni zamanda, elm, sənət, din, təhsil intellektual həyat sahəsinə daxil edilir (Шемякин Я.Г. 2001).

Şəxsiyyət potensialının cəminə daxildir: epistemoloji (idrak), konstruktiv (yaradıcı), aksioloji (dəyər yönümlü), ünsiyyətcil, estetik. Və aşağıdakılar bir insanın şəxsiyyətinin səriştələri kimi çıxış edir:

- etibarsızlığa və mürəkkəbliyə tab gətirmə qabiliyyəti, müzakirələrdə mövqe tutmaq, keçdiyi siyasi və iqtisadi mühitin əhəmiyyətini görmək, əmək fəaliyyəti;
- bir insanın öyrənmə qabiliyyəti: fədakarlıq, təxəyyül, yaradıcı şəxsiyyət, ixtiraçılıq (həyatda işin bacarıqlı və yüksək keyfiyyətlə icrası);
- bilik münasibətlərini təşkil etmək və onları təqdim etmək bacarığı;
- məlumat və biliyi axtarmaq və bölüşmək bacarığı: komanda ruhu və hədəflərə çatmaq üçün müsbət diqqət;
- bir fərdin yalnız bir ölkə daxilində hərəkət etmə qabiliyyəti;
- dünya nailiyyətləri ilə tanış olmaq üçün müxtəlif bilik bazalarına müraciət etmək bacarığı;
- mədəniyyət və təcrübə;
- fərdin yeni cəmiyyətin əxlaq normalarına uyğunluğu və s (Леманова П.В. 2009: c.26).

Y.V.Khadiulina "Müasir cəmiyyətdə insan kapitalına investisiyanın rolu və əhəmiyyəti" məqaləsində qeyd edir ki, "insan kapitalı yalnız insana xas olan bilik və istehsal keyfiyyətləri ehtiyatı deyil, həm də dövlət və ya şirkət tərəfindən davamlı öyrənmək və inkişaf etdirmək imkanıdır".

İnsan kapitalı iqtisadi düşüncənin inkişafının nəticəsidir, bu anlayış öz-özünə yaranmamışdır. "Təşəbbüskarlıq qabiliyyəti" anlayışının torpaq, kapital və işçi qüvvəsi ilə birlikdə ayrı istehsal amili kimi meydana gəldiyi dövrdə insan kapitalı problemləri nəzərdən keçirilməyə başlamışdı.

Fransız iqtisadçı R.Cantillon XVIII əsrdə sahibkarlıq bacarığının şəxsin zərər çəkməyə, risk etməyə və gələcəyə baxma istəyinə bağlı olduğunu bildirdi. Ona görə risk etmək istəyən hər kəs təşəbbüskardır (European Journal of the history of Economic Thought.2012, s.24).

Qeyd edək ki, "sahibkarlıq" ifadəsini ilk dəfə müasir mənada işlədən iqtisadçılardan biri də Richard Cantillon olmuşdur. Jozef Şumpeter sahibkarlıq fəaliyyətini yenilikçi bir funksiyanın mövcudluğunun tanınması ilə əlaqələndirirdi. O, belə ifadə edirdi ki, "Bir təşəbbüskarın əsas qabiliyyəti, mövcud istehsal amillərindən onları birləşdirərək yeni bir istehsal amili yaratmaq bacarığıdır. Bunun da nəticəsi "yenilik" və ya "innovasiya" olmuşdur".

Amerikalı iqtisadçı İ.Kirzner də təşəbbüskarın rolu haqqında düşünmüşdür. O, sahibkarın sistemin tənzimlənməsini, bazarların tarazlıq vəziyyətinə gətirilməsini təmin edə biləcəyi bir forma gətirməli olduğuna inanırdı. Və nəhayət, Fransız iqtisadçı A.Marshall onsuz da mövcud olan üç ənənəvi istehsal amilinə dördüncü bir amil əlavə etdi - təşkilat. O, bir təşəbbüskarın vəzifəsinin, müəssisənin istiqamətini diktə edən iş görməkdə əsas qərarlar vermək olduğunu müdafiə etdi.

Bütün bunlar zaman keçdikcə müəssisənin idarəedilməsində sahibkarın rolu və funksiyaları barəsində anlayışı artırdı. Bilik və bacarıqların bir təşkilatın potensialını ortaya qoymağa qadir olduğunu və sahibkarın bilik və bacarıqları nə qədər çox olarsa, bu potensialında daha çox ortaya çıxacağını qəbul edilmişdi. Məhz buna görə də hər kəsin insan qabiliyyətlərinə, insan kapitalına marağı çoxalmışdı, çünki, gələcəkdə yüksək gəlir gətirəcəyini bilirdilər.

İnsan kapitalının mahiyyəti, onun istehsaldakı yeri problemi hər zaman maraq obyekti olmuşdur. Və hər bir tədqiqatçı onu ayrılıqda təyin etmişdir.

İngilis iqtisadçı Nassau Seniora görə insan ən yaxşı kapitaldır. O kapitalı insanın bilik və bacarığı ilə əlaqələndirirdi. Sərbəst insanla kölə olan insan arasındakı fərq bu idi ki, azad bir insan özünü ömrünün bir dönəmində satırsa, kölə bunu hər zaman edir.

Klassik siyasi iqtisadiyyatın qurucusu William Petty XVII əsrin sonlarında özünün "Siyasi aritmetik" əsərində insan kapitalını qiymətləndirdi. İnsana və insan qabiliyyətlərinə ölkənin sərvətinin artırılmasında önəmli bir vəzifə verdi. Hər hansı qabiliyyət, bilik və bacarıqlara malik əhali müəyyən məbləğdə gəlir əldə edə bildiyi kimi, müəyyən miqdarda xərclərdə yarada bilir. O, "Vergilər və haqlar haqqında risalə" sində məqsədəuyğun şəkildə pul xərcləməyi belə təklif etmişdir: "Hansı əsas fəaliyyətlərin ölkənin ehtiyac duyduğu insan kapitalını təşkil etdiyini öyrənmək üçün müəyyən peşə sahiblərini saymağa dəyər".

İqtisadiyyatın banisi Adam Smith insan kapitalı problemini daha dərindən araşdırmışdır. İnsan kapitalının inkişafında onun mühim rolu olmuşdur. Klassik burjua siyasi iqtisadiyyatının nümayəndəsi olan Adam Smithin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" adında əsəri fərqli baxış bucağını iqtisadiyyata sundu. Adama görə, dövlət onun üçün müəyyən edilmiş qaydalara riayət etməlidir və sahibkarlara fəaliyyətlərini həyata keçirməkdə kömək etməklə bağlı zəmanət verməlidir. Əsər beş kitabdan ibarətdir ki, onunda ikincisi "Kapitalın təbiəti, yığılması və istifadəsi haqqında" kitabıdır. Olduqca çox maraq yaradan bu kitab əsas və dövriyyə kapitalını müəyyən edir.

A. Smithə görə kapitalın məzmunu əsasən dörd maddədən ibarətdir (Смит А. 1962: c.100).

- ✓ Maşınlar və alətlər;
- ✓ Gəlir əldə etmək üçün istifadə olunan binalar;
- ✓ Torpağın yaxşılaşdırılması (çünki yerin vəziyyəti keyfiyyətli nəticəyə səbəb olur);

✓ Cəmiyyətin bütün sakinlərinin və ya üzvlərinin qazanılmış və faydalı qabiliyyətləri (Смит А. 1962: с.100).

Burdakı sonuncu bənd özündə insan kapitalını əks etdirir, belə ki, insan öz fərdi, iqtisadi və sosial rifahını yaratmaq üçün müəyyən bilik və bacarıqlara sahibdir. A.Smith hesab edirdi ki, faydalı bilik və bacarıqlara yiyələnmək həmişə təhsil və təlimə xərclənən xərclərlə, eyni zamanda insanın tərbiyə və təhsili müddətində saxlanılması ilə əlaqəlidir. Bu xərclər insanın şəxsiyyətində reallaşır və insan kapitalını yaradır.

Hər bir insana aid olan bilik və bacarıqlar, həm də onların mənsub olduğu ölkənin, cəmiyyətin sərvətinin bir hissəsi olur. Əhalisi böyük qabiliyyətlərə malik olan cəmiyyətlər yüksək inkişafa nail olur, istehsalda daha az xərclərlə qarşılaşırlar. Bir müddət keçdikdən sonra müəyyən qabiliyyət sahibləri maliyyə obyekti kimi çıxış edir. Onlar nəinki, xərcləri bərpa edir, həmçinin mənfəət qazandırır.

İnsan kapitalının qiymətləndirilməsində Alman filosofu, iqtisadçı Karl Marks da müəyyən qədər eyni fikirdə olmuşdur. Karl Marks da insanların bilik və bacarıqlarının cəmiyyətin sərvəti olduğunu bildirirdi. Onun yanaşması belə idi ki, əgər iş gücü işçinin öz əlindədirsə və satılırsa, satıldıqdan sonra onun dəyəri kapital olacaq. Əgər kapitalist özü işgücünə sahibdirsə, deməli yenə kapitaldır. Karl Marksın bu yanaşması konkret bir dövr üçün izah oluna bilər.

Nəzəriyyənin müasir formada rəsmiləşdirilməsindən əvvəl insan kapitalına dair başqa bir maraqlı nöqtə, ingilis neoklassiki Alfred Marshallın baxışı idi. Ümumiyyətlə, o, kapitalı qeyri-maddi, lakin materialla sıx əlaqəli bir şey hesab edirdi. A.Marshalla görə “Heç vaxt kapitalı heç bir şeyin fondu kimi qəbul etməməlisən. Buna yalnız bir şey üçün bir fond, yəni bütün digər şeyləri təmsil etməli olan pul kimi baxmaq lazımdır” (Маршалл А. 2008: с.12).

Kapitala və qeyri-maddi faydalara aiddir: bir sahibkarın peşəkar keyfiyyətləri və iş qabiliyyətləri, ticarət əlaqələri, tərəfdaşlardan və cəmiyyətdən ona olan etibar. Üstəlik, bilik kapitalın əhəmiyyətli bir hissəsini təşkil edir. “Bilik bizim ən güclü istehsal motorumuzdur” (Маршалл А. 2008: с.12-13).

Ancaq biliklərin texniki olması lazım deyil. A.Marshallın qeyd etdiyi kimi, istehsal bilikləri getdikcə daha az vacib hala gəlir. Səmərəlilik, vəziyyəti qiymətləndirmək və düzgün qərarlar qəbul etmək bacarığı, hədəfin həyata keçirilməsində diqqətlilik, əzmkarlıq və bacarıq vacibdir. Buna görə də A.Marshall insan kapitalı haqqında deyir: "İnsanın qabiliyyəti, hər cür kapital kimi istehsal vasitəsi qədər vacibdir."

A.Marshall insan kapitalına diqqət yetirməsinə baxmayaraq, sonunda "İqtisadi Elmin Əsasları" adlı əsərində bu mövzuda araşdırmaları "ümidsiz" adlandırdı. Bu tip kapitalın varlığını tanıdı və bir insanın kapital olaraq dəyərinin ölçülməsinin faydalı ola biləcəyini etiraf etdi, çünki insanlar bazarda satılmadığı üçün bu anlayışı qeyri-real olaraq tanıdı. O dövrdə Alfred Marshall şəxsiyyətinə dair nüfuz olduqca böyük olduğundan, mövqeyi məlum olduqdan sonra insan kapitalının öyrənilməsinə maraq azalmağa başladı. Buna görə də A.Marshall nəzəriyyəni müasir formada rəsmiləşdirmədən əvvəl, insanın məhsuldar qabiliyyətlərinin öyrənilməsi ideyasının inkişafına töhvə verən iqtisadçıların siyahısında sonuncusu sayılır.

İqtisadi düşüncənin inkişaf tarixinin tanınmış tədqiqatçısı M.Blaug yazır ki, Marshall "Ortodoksal iqtisadiyyatın əsas hissəsindən kənarda durmadan inkişaf edən bu problemə olan marağı öldürdü".

Keynesianizmin çiçəkləndiyi dövrdə yenidən insan kapitalı anlayışı ortaya çıxdı. 1935-ci ildə J.Walsh "Bir insana kapital anlayışının tətbiqi" adlı məqaləsində kapitalın şəxsiyyətinin təhsilinin və peşə keyfiyyətlərinin olub-olmadığını, əgər varsa, nə qədər gəlir gətirdiyini müzakirə etdi. J.Walsh bu keyfiyyətlərin kapital olduğuna inanırdı. Öz fərziyyəsini yoxlamaq üçün müxtəlif təhsil səviyyələri olan insanların əmək haqqı barədə məlumatları araşdırdı. Onların kapital xalı təhsilin bitdiyi hər yaş səviyyəsi üçün qazanc kapitallaşdırma metodundan istifadə etməklə əldə edilmişdir. J.Walsh təhsilə xərclənən xərclərin həmişə alınan təhsilin dəyərindən az olacağını sübut etdi.

XX əsrin ikinci yarısının əvvəllərində insan kapitalı nəzəriyyəsinin meydana gəlməsinə davam edən elmi və texnoloji inqilab fonunda istehsal prosesində insan amilinin əhəmiyyətinin artması kömək etdi. İnsan kapitalı nəzəriyyəsi bir insanın

bilik və bacarıq keyfiyyətlərini qazanma və sonra iqtisadi mənfəət mənimsəmək, fərdi, sosial və iqtisadi rifah qazanmaq üçün onlardan istifadə etmə prosesi ilə bağlı müxtəlif nəzəriyyə, müddəa, baxış və fikirlərin məcmusudur. İnsan kapitalı nəzəriyyəsi indiki formada məşhur Amerika iqtisadçısı, Nobel mükafatı laureatı T. Schultz tərəfindən 1950-1960-cı illərdə formalaşmışdır. O, insanın qazandığı bacarıq və bilikləri xüsusi bir kapital forması olaraq təyin etdi. Bununlada təkcə iqtisadçılar deyil, siyasətçilər və geniş ictimaiyyət arasında da bu məsələyə marağın yaranmasına kömək etdi. Nəticədə insan kapitalı anlayışı çox keçmədən yalnız iqtisadi deyil, həm də sosial problemlərin müzakirəsində fəal şəkildə istifadə olunmağa başladı.

T.V.Schultz, insan kapitalının gələcək qazanc və ya gələcək məmnuniyyət mənbəyi və ya hər ikisi üçün xidmət edən bir kapital forması olduğunu müdafiə etdi. Bu qazancın sahibi insan olur, çünki belə kapital tamamilə insanın özünə məxsusdur. T.Schultz daha sonra nəzəriyyəsini belə bir ifadə ilə tamamladı: "Bütün insan qabiliyyətlərini ya fitri, ya da qazanılmış xüsusiyyətlər kimi qiymətləndirin. dəyərli olan və uyğun investisiyalarla inkişaf etdirilə bilən insan kapitalı olacaq" (Шульц T. 1971: c.23).

T.Schultzun ən məşhur əsərləri arasında "Kənd təsərrüfatının istehsalı və rifahı", "Ənənəvi kənd təsərrüfatının çevrilməsi" (1964), "İnsana sərmayə qoyma: Əhali keyfiyyətinin iqtisadiyyatı" (1981) və s. əsərləridir.

"Təhsil ilə kapitalın yaradılması" məqaləsində T.Schultz təhsil dəyəri və bir adamın təhsil aldığı zaman itirdiyi əməyin dəyəri daxil olmaqla əmək xərclərinin təxminlərini təqdim etdi. Bu xərc iqtisadçılar tərəfindən nəzərə alınmadı və tədqiqat mövzusu olaraq ortaya qoyulduqda, onlar tərəfindən mübahisəli elan edildi. Lakin, onun konsepsiyası insan kapitalına qoyulan investisiyanın həlledici bir amil olduğu bir çoxlarına aydınlaşana qədər tədricən qəbul olundu. O, tezliklə insan kapitalına investisiya qoyuluşlarının həcminin artmasına səbəb oldu.

T.Schultz insan kapitalına investisiyaların qoyuluşu dedikdə təhsilə yatırımlarla yanaşı, həm də səhiyyə və digər sahələrə yatırılan investisiyaları nəzərdə tuturdu.

İnsan kapitalı bir insanın istehsal gücünün artmasına kömək edən bilik və bacarıqlarını ifadə edir. Əksər iqtisadçıların müəyyən etdiyi “insan kapitalı” insanların sahib olduğu mal və xidmətlər istehsal etmək üçün müəyyən bir müddət ərzində istifadə edilə bilən bilik, bacarıq, motivasiya və enerjidən ibarətdir. O insanın özü üçün gələcək gəlir axınını yaratmağa qadir olan qabiliyyətlər toplusudur.

T.Schultzdan sonra bu anlayış G.Becker tərəfindəndə araşdırılaraq inkişaf etdirilmişdir.

Yeni iqtisadiyyat XX əsrin 80-ci illərinin əvvəlləri üçün aparıcı rolun maddi məhsullara deyil, xidmətlərin istehsalına keçdiyi bir iqtisadiyyat kimi şərh olunur. 1990-cı illərdə yeni iqtisadiyyat yüksək texnoloji elementlərin olması ilə xarakterizə olunan bir sıra sənaye sahələrini ifadə etməyə başladı.

Yeni iqtisadiyyatın əsası yüksək səviyyədə inkişaf etmiş insan kapitalıdır. Qərb iqtisadçıları inanırlar ki, bir insana investisiya qoyuluşunun ən vacib forması təhsil, iş yerində əlavə təhsilin verilməsi, tibbi xidmət, uşaq sahibi olmaq və onlara qulluq etməkdir. Peşə təhsili və digər yüksək təhsil pillələrində insanın bilik səviyyəsini artırmaq, yəni, insan kapitalının həcmini artırmaq da iqtisadi inkişafa gətirib çıxarır. Yüksək standartlarla təmin olunmuş səhiyyə sistemi sağlamlığı qorumaq, xəstələnmə və ölümü azaltmaqla bir insanın ömrünü uzadır və eyni zamanda istifadəsinin intensivliyini artırır. Miqrasiya və məlumat axtarma, əməyin daha yaxşı ödənildiyi iqtisadi sahələrə və digər ölkələrə işçi qüvvəsinin hərəkətini təşviq edir, hansı ki, orada insan kapitalı xidmətlərinin qiyməti daha yüksəkdir. Uşaq sahibi olmaq və onlara qayğı göstərmək isə gələcək nəsildə insan kapitalının çoxalma formasıdır.

İnsan kapitalına tarixi yanaşmaları nəzərdən keçirdikdən sonra belə qənaətə gəlmək olar ki, bir şəxsin bilik və bacarıqlarının ölkənin milli sərvətində rolunun vacibliyi haqqında fikirlər xeyli əvvəl mövcud olmuş və bu mövzu ilə bağlı tədqiqatların intensivliyi yüksək olmasa da, hər zaman üzərində düşünülmüşdür.

## 1.2. İqtisadiyyatda insan kapitalı və onun əsas xüsusiyyətləri

Anladıq ki, insan kapitalı bir insanın cəmiyyətin bütün vasitələrdən yararlanmaq üçün peşəkarlığa, bilik və bacarıqlara malik olması və onların sayəsində özünü hərtərəfli realizə edə bilməsidir. Yəni, biz insan kapitalı deyəndə bilik, intellekt, keyfiyyətli əmək, sağlam və rifaha malik həyat şəraitini başa düşürük.

Başlanğıcda insan kapitalı yalnız insana yatırılan investisiyalar kimi anlaşılırdısa, artıq özündə daha geniş məzmun daşıyır. Bu istehlak xərcləri ilə bağlıdır. İstehlak xərcləri dedikdə, şəxsin təhsil, səhiyyə və ailəsinə çəkilən xərclər, mədəni tələblərlə bağlı xərcləri və s. başa düşülür.

Ümümi baxdıqda insan kapitalına aid bütün tərifləri özündə fərqli cəhətləri biruzə verən iki qrupa bölə bilərik.

Birinci qrup, məhsul istehsalında istifadə olunan insanın bilik, bacarıqlarının, qabiliyyət və keyfiyyət ehtiyatlarının cəmini insan kapitalı kimi ifadə edir. İkinci qrup olaraq isə insan kapitalının investisiya kapitalı vasitəsilə yarandığını, yəni, investisiyaların bir insana yatırılması nəticəsində yarandığını şərh edir. Verilmiş mövqelərin təhlil edilməsi nəticəsində dar mənada insan kapitalı bilik və bacarıqları əks etdirən insan keyfiyyətlərinin məcmusu və yaxud ehtiyatı kimi anlaşılır.

Üç əsr ərzində təkamülləşən iqtisadçıların baxışları sonda, "işçi qüvvəsi" anlayışından "insan kapitalı" anlayışı ilə əvəzləndi. Və indi onu belə izah edirlər ki, insan kapitalı sərmayələr nəticəsində formalaşan, insan tərəfindən toplanan bilik, bacarıq, sağlamlıq fondudur. O, ictimai isehsal sahələrində lazimi keyfiyyətlərin, əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin çoxalmasına və insanın gəlirlərinin artmasına səbəb olur.

İqtisadiyyatın əsas mənbələrindən biri insan kapitalı hesab olunduğuna görə bu kapitalın digər kapital növləri ilə müqayisədə əsas xüsusiyyətlərini nəzərdən keçirək:

1. İnsan kapitalı zaman keçdikcə həm azala, həm də arta bilir. Bu kapitaldakı artım həm kapitalın sahibindən, həm də mövcud olduğu cəmiyyətdən asılıdır, yəni, onların səyləri nəticəsində baş verir. Çünki, insan kapitalına investisiyaların

səmərəliliyi fərd və xarici mühitdən asılıdır. Fiziki kapitaldan fərqli olaraq, insan kapitalı amortizasiyaya uğrayır, yəni, köhnəlir və mütləq yenilənmə tələb edir.

2. İnsan kapitalına investisiya qoyuluşları uzunmüddətli xarakter daşıyır və uzun müddət ərzində daha yüksək gəlir əldə etməyə imkan verir. Bu kapitala yatırılan investisiyalar yalnız iqtisadi yox, həmçinin, fərdlərin sosial rifahını təmin edir. Belə ki, bir insanın əldə etdiyi gəlir təmamən ona aid olur və həmin gəliri müstəqil şəkildə idarə edə bilir.

3. İnsan kapitalı fiziki kapitaldan fərqli olaraq, öz daşıyıcısından ayrıla bilmir. Onun istifadəsi insanın özündən, onun maraq dairəsindən asılıdır.

4. Sənayedə digər kapital növləri ilə müqayisədə insan kapitalı aşağı likvidliyə malikdir.

İnsan kapitalının fiziki kapitalla oxşar xüsusiyyətlərinə misal göstərə bilərik:

- İnsan kapitalı da fiziki kapital kimi uzunmüddətli dövrdə istifadə oluna bilir;
- İnsan kapitalının da fiziki kapital kimi istifadə müddəti məhduddur;
- Fiziki kapital kimi insan kapitalı da saxlanması və təmiri üçün xərclər tələb edir;
- İnsan kapitalı fiziki kapital kimi fiziki aşınması baş vermədən mənəvi cəhətdən aşına bilir;
- İnsan kapitalı fiziki kapital kimi ona olan tələb və təklifə əsasən öz qiymətini artıra və ya azalda bilir.

İnsan kapitalının quruluşu fitri bacarıq və istedad, təbii qabiliyyətlər, təhsil, sağlamlıq, intellektual kapital, işləmək və oxumaq üçün motivasiya, hərəkətlilik, peşə bacarıqları, bilik və səriştələr, şəxsin öyrənmə və ya iş prosesində qazandığı elementlərdən ibarətdir.

İnsan kapitalının elmi ədəbiyyatlarda konkret bir quruluşu yoxdur. Ayrı-ayrı elm adamları insan kapitalının quruluşuna fərqli sayda elementləri daxil edirlər. Lakin elmi ədəbiyyatlarda insan kapitalının təsnifatı fərqli əsaslarla və fərqli məqsədlər üçün verilir.

İnsan kapitalına aşağıdakılar daxildir:

1) səhiyyə kapitalı;

2) kapital hərəkətliliyi (miqrasiya);

3) təsis hissələri təhsil, bilik, elmi və yenilikçi komponentlər olan intellektual kapital;

4) kvalifikasiyaları, səriştələri, məhsuldar bacarıq və təcrübəni özündə birləşdirən istehsalatdakı təlim kapitalı;

5) sahibkarlıq fəaliyyətinin kapitalı (rəqabət qabiliyyəti) (Беспаев M.E. 2016: C.14).

Fərdi insan kapitalının dəyərini dar mənada belə bir düsturla ifadə edirlər:

$İK_F = B_F + B_F + T_F + T_F$,

$B_F$- insanın bilikləri;

$B_F$- insanın bacarıqları, qabiliyyətləri;

$T_F$- insanın təcrübəsi;

$T_F$- insanın təşəbbüsləri.

Fərdlərin sahib olduqları bilik və bacarıqlar onların bir cəmiyyətdə dəyərini əks etdirir. Bu biliklər fərdə yalnız peşəkar yox, həm də şəxsi həyatında uğur qazandırır.

Bəzi alimlər insan kapitalını dar mənada düşünməyə üstünlük verirlər, hansı ki, yalnız fərdi bir işçi ilə əlaqəlidir (Sxem 1).

**Sxem 1: İşçinin insan kapitalının xüsusiyyətləri**




**Mənbə:** Маклакова Е.А. Человеческий капитала: понятие, оценка, учет // Вестник Ленинградского государственного университета им. А.С. Пушкина. 2010. № 1. Том 6. 63.

Geniş mənada insan kapitalının dəyəri bu düsturla müəyyən edilir:

$İK_F = İD_F - KBD_F + BD_F + \gamma 4 \times FİD + GBD_F$ ,

$İK_F$ - fərdi insan kapitalının dəyəri;

$İD_F$ - fərdi insan kapitalının ilkin dəyəri;

$KBD_F = \gamma 1 \times İD_F$ - fərdi insan kapitalı haqqında köhnəlmiş biliklərin dəyəri;

$BD_F = \gamma 2 \times İD_F$ - əldə edilmiş biliklərin, fərdi insan kapitalının bacarıqlarının dəyəri;

$FİD_F$ - fərdi insan kapitalının investisiya dəyəri;

$GBD_F = \gamma 3 \times İD_F$ - gizli (aşkar olunmamış) biliklərin dəyəri, fərdi insan kapitalının qabiliyyətləri;

$\gamma 1, \gamma 2, \gamma 3, \gamma 4$ - ekspert metodu ilə təyin olunan çəki əmsalları (Носкова К.А. 2013: c.4-8).

İnsan kapitalizasiyasının mərhələlərinə əsaslanan zaman kəsiyində insan kapitalının formalaşmasını üç əsas mərhələyə bölmək olar:

- işdən əvvəlki dövr;
- iş müddəti;
- əməkdən sonrakı dövr (Белкин В.Н., Белкина Н.А. 2010: № 10. Т. 1. с.18).

Zaman keçdikcə bilik köhnəlir, ona görə də insan daim biliklərini yeniləməli, onları artırmalı və tətbiq etməlidir.

İnsan kapitalı konsepsiyası təşkilat daxilində fərqli təfsir oluna bilər. Quruma aid qaynaq kimi fikirlər, texnologiya, nou-hau, avadanlıq, tədqiqat və s. misal göstərilə bilər. Eyni zamanda, insan kapitalı bir təşkilatın işçilərinin keyfiyyəti ilə əlaqəli sərvətidir. Məhz işçilərin köməyi ilə, onların əldə edilmiş bilik və bacarıqları, fitri istedadları, səriştəsi sayəsində bir təşkilatın insan kapitalı yaradılır. Deməli, bir təşkilatın insan kapitalı onun işçilərinin mövcud bilik və bacarıqlarının yaratdığı ümumi dəyəri təmsil edir.

Təşkilat özünün insan kapitalını təlimlər, performansın monitorinqi, birbaşa əlaqə, motivasiya, müəyyən iş vəzifələri və s. yollarla artırır. Ən geniş yayılmış peşəkar inkişaf vasitəsi isə işəgötürən tərəfindən verilən təlimlərdir. Təşkilatın insan kapitalı digər kapital formalarını da yaradır.

**Sxem 2: Əsas İnsan Kapitalının Qiymətləndirilməsi Sxemi**




**Mənbə:** Белкин В.Н., Белкина Н.А. Отношения человеческого капитала в связанной экономической системе / Челябинская гуманитарная., 2010, с.18.

Əmək öncəsi dövrdə insan kapitalının formalaşmasının üç dövrü ayrılır:

1) 0 ilə 5-6 yaş arası;

2) 7 ilə 17-18 yaş arası;

3)17-18 yaşdan 23 yaşa qədər (Родионова Е.М. 2005: №5. C.2 URL: http://www.jeducation.ru/5_2005/87.html).

İşə hazırlıq dövründəki əsas predmetlər ailə, uşaq bağçaları, məktəblər, peşə məktəbləri, orta və ali ixtisas təhsili müəssisələri və s. istiqamətlərində yaranır.

Əmək dövründə bu subyektlərin hərəkəti qeyd edilə bilər: təsərrüfat subyektləri (firmalar, müəssisələr), əmək birjaları, işə götürmə agentlikləri, məşğulluq xidmətləri və s.

İşdən sonrakı dövr köməkçi və əsas subyektlərin hərəkəti ilə xarakterizə olunur. Ev təsərrüfatları, həvəskar fəaliyyətlər və s. buna misal göstərmək olar.

İnsan kapitalını ölçüsünə görə belə təsnifləşdirirlər:

- Fərdi insan kapitalı - hər hansı bir fərdi nəzərdə tutur;

- Bir təşkilatın (firmanın) insan kapitalı - mikro səviyyə;

- Regional insan kapitalı - mezo səviyyə;

- Milli insan kapitalı - makro səviyyə;

- Fövqəlmilli (qlobal) insan kapitalı - qlobal səviyyə (https://bizneskitai.ru/az/chelovecheskie-kachestva-i-chelovecheskii-kapital-chelovecheskii/).

İqtisadi inkişaf modelini insan kapitalı formalaşdırır. Fərdlərin bilik, bacarıq, davranış, öyrənmə və başqa xüsusiyyətləri insan kapitalının ən alçaq səviyyəsini formalaşdırır. O, ətraf mühitlə ayrı-ayrı fərdlərdə qarşılıqlı əlaqə vasitəsilə artaraq, zaman içində daha yüksək keyfiyyətli kapitala çevrilir.

İnsanın bacarıqları onun təhsilinə qoyulmuş investisiyalar hesabına əldə edilir. Bu kapital daşıyıcısının məhsuldarlığını yüksəldən təhsil və sağlamlığın qorunmasının təmin edilməsi üçün investisiyaları və xərcləri nəzərdə tutur. İnsana yatırım böyük önəmə malikdir. Müasir dövrdə insana investisiya yatırmaqla onun inkişafına, artmasına nail olurlar.

1. Təhsil - insana yatırılan kapital kimi insan kapitalının həcmini artırır;

2. Sağlamlığın qorunması - insan kapitalının istismar müddətini uzadır;

3. Miqrasiya və əmək bazarında məlumat axtarışı - bu insan kapitalının qiymətini artırır;

4. Uşaq doğulması və onun tərbiyəsi - gələcək nəsillərdə şəxsi insan kapitalının istehsalını şərtləndirir.

İnsan kapitalına əsas yatırımlar təhsilə yatırımlardır. Təhsil bilik və bacarıqları formalaşdırmaq üçün ixtisaslaşdırılmış fəaliyyət növüdür. Təhsil dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sahəsidir. Sürətli inkişaf baxımından təhsillə rəqabət apara biləcək çox az sahə var. O böyük gəlir gətirmək qabiliyyətindədir. Təhsil sektoruna yatırılan investisiya milli gəlirin təqribən 10 $ artmasına imkan verir.

Təhsil sektoru sahəsində həyata keçirilən siyasət inkişaf etməkdə olan ölkələrin siyasətinin əsasında durur.

## 1.3. İnsan kapitalının inkişaf amilləri və qiymətləndirmə göstəriciləri

İnsan kapitalı müasir şəraitdə ölkənin əsas sərvətlərindən biridir. İnsan zəkası gerçək bir mühərrikə və irəliləmənin aparıcı amilinə çevrilməkdədir. Qaynaq olaraq yenilikçi inkişaf və qloballaşma yolu konteksində praktik olaraq onu əvəz edəcək yollar mövcud deyildir. Buna görə də insan kapitalının formalaşmasına, faydalı istifadəsinə maneçilik törədən demoqrafiq, iqtisadi, siyasi, sosial və digər yönümlü problemlər iqtisadiyyatda mənfi nəticələrə səbəb olur. İnsan kapitalı nisbətən az həcmdə və aşağı keyfiyyət xüsusiyyətlərinə malik olduqda təbii kapitaldan səmərəli istifadə, iqtisadi böyümə və hətta mümkünsüz məsələləri həll etmək olduqca çətindir. Bütün bunları nəzərə alaraq, insan kapitalının tərkibini müəyyənləşdirmək, onun inkişafını təmin edən əsas amillərinə diqqət yetirmək və bəzilərini öyrənmək məqsədə uyğundur.

İnsan kapitalını müasir dövrdə ən vacib komponent kimi müəyyənləşdirərkən bir çox tədqiqatçı tərəfindən iqtisadi inkişafı təmin edən sahibkarlıq qabiliyyətləri nəzərə alınır. J.Şumpeterə görə, sahibkarlıq fəaliyyəti əsasən, yeni biliklərin yaradılmasını yox, yeni problemlərin aradan qaldırılması, həlli yollarının aşkar edilməsi, sosial vəziyyətin yaxşılaşdırılması ilə bağlı yeniliklərin tətbiq edilməsini şərtləndirir. T.Şultsa görə isə, sahibkarlıq fəaliyyətinin digər tərəfi, məlumatları qavramaq, düzgün şərh etmək və iqtisadi vəziyyətin dəyişməsinə cavab olaraq resursları hərəkətə gətirmək üçün, yaradılmış balanssızlıq şəraitində mənbələrdən istifadəni optimallaşdırmaqdır.

Deməli, biz insan kapitalının ən vacib komponentini müəyyən edərkən, əmək məhsuldarlığının artırılması və istehsal səmərəliliyinin yüksəldilməsi üçün işçilərin istifadə olunan təşəbbüskar, intellektual və yenilikçi qabiliyyətlərinin, hərəkətliliyinin, yaradıcılığının və digər keyfiyyət xüsusiyyətlərinin cəmi nəzərə alınmalıdır.

Əsas insan kapitalı fondlarına daxildir:

- ✓ Təhsil fondu, elm fondu, innovasiya fondu daxil olmaqla intellektual kapital;
- ✓ İstehsalda təhsil fondu (keyfiyyətlər, bacarıq, yenidən istehsal);

- ✓ Sağlamlıq fondu;
- ✓ İşçilərin hərəkətliliyini təmin edən miqrasiya fondu;
- ✓ İqtisadi fəaliyyətin motivasiyası fondu (Даниленко Н.Н., Долгополова И.С. 2009: c.84).

Əsas fond kimi təhsil fondu, elm fondu və innovasiya fondu insan kapitalının formalaşmasında böyük əhəmiyyətə malikdir. İnsan kapitalının ən təsirli və dinamik komponenti təhsil komponentidir.

Əmək mühiti nəzərə alınmaqla, müasir iqtisadiyyatda funksional olaraq səhiyyə fərdlərdə əlavə qabiliyyətlər yaratmır. O insan kapitalının daha uzun və intensiv istifadəsini təmin edir.

Sosial sistemdə, çoxsaylı tədqiqatların göstərdiyi kimi, təhsil səviyyəsi ilə insan kapitalının digər komponentləri arasında sabit bir müsbət əlaqə var. Belə ki, bu kapital sağlamlıq vəziyyəti də daxil olmaqla, əhalinin daha təhsilli hissəsi tərəfindən əldə olunur. Yəni, təhsil işçilərin digər müsbət qiymətləndirilən keyfiyyətləri üçün əsas kapital yaradan amil kimi nəzərdən keçirilə bilər.

Siyasi və sosial davranışların müəyyənləşdirilməsində təhsil səviyyəsi ən vacib amildir. Tədqiqatlar göstərir ki, bərabər şəraitdə daha yüksək təhsil səviyyəsi sosial və ictimai aktivliyi, insanların əməkdaşlıq, təşkilatlanma və qarşılıqlı fəaliyyət qabiliyyətini artırır. Təhsil fərdlərin sosiallaşmasını təşviq edərək cinayət risklərini də azaldır.

İnvestisiyaların həyata keçirilməsi insan kapitalının inkişafı və təkmilləşdirilməsi üçün ilkin şərtdir. İnvestisiyalar iki cəhətdən nəzərdən keçirilə bilər: həm maliyyə mənbələrinə investisiya qoyuluşu, həm də birbaşa müəyyən fəaliyyət növləri.

İnsan kapitalına qoyulan investisiyaların maddi (bir insanın fiziki formalaşması üçün lazım olan xərclər - bir uşağın böyüməsi üçün) və qeyri-maddi (insanlarda təcəssüm etdirilən kapitalın məhsuldarlığının artmasına kömək edir, bilik və təcrübələrini artırır) olaraq təsnif edilir.

İnsan kapitalına qoyulan investisiyalar müəyyən xüsusiyyətlərə malikdir:

- İnsan kapitalına qoyulan investisiyanın qaytarılması birbaşa onun sahibinin ömründən (iş müddətinin uzunluğundan) asılıdır. İnsana nə qədər əvvəl investisiyalar qoyulursa, o qədər sürətli qayıtmağa başlayır. Daha keyfiyyətli və uzunmüddətli investisiyaların daha uzunmüddətli bir təsiri var;
- İnsan kapitalı yalnız fiziki və mənəvi cəhətdən aşınmaya məruz qalmır, həm də yığılmaq, yəni, çoxalmaq qabiliyyətinə malikdir;
- İnsan kapitalı toplandıqca, gəlirliliyi müəyyən bir həddə qalxır. Aktiv əmək fəaliyyətinin yuxarı həddi ilə məhdudlaşır və sonra kəskin şəkildə azalır;
- İnsan kapitalının formalaşmasında qarşılıqlı çarpan effekti mövcuddur, bunun mahiyyəti təlim prosesində yalnız öyrənənin deyil, eyni zamanda öyrədənin xüsusiyyətlərinin və qabiliyyətlərinin yaxşılaşdırılması və artmasıdır;
- Bir insana edilən bütün investisiyalar insan kapitalına deyil, sosial baxımdan məqsədəuyğun və iqtisadi cəhətdən lazım olan investisiyalar kimi qəbul edilə bilər;
- Bir insana investisiya qoyuluşlarının mahiyyəti və növləri onun tarixi, milli, mədəni xüsusiyyətləri və ənənələri ilə müəyyən edilir;
- Digər müxtəlif kapital formalarına qoyulan investisiyalarla müqayisədə insan kapitalına yönəldilən investisiyalar həm cəmiyyət, həm də ayrı-ayrı insanlar baxımından ən gəlirlidir. (Базылева М.Н., Базылев Н.И. 2012: с.167).

Ənənəvi olaraq insan kapitalına üç ən açıq investisiya forması vardır:

1. Ümumi və xüsusi, rəsmi və qeyri-rəsmi təhsil, iş yerində təlim daxil olmaqla təhsil xərcləri.

2. Səhiyyə xərcləri. Sağlamlıq vəziyyəti, bir hissəsi təbii (irsi) olan və bir hissəsi həm insanın özünün, həm də cəmiyyətin səyləri və vəsaitlərinin xərclənməsi nəticəsində əldə edilən kapital kimi başa düşülür. Yaxşı sağlamlıq, xəstəliklərin qarşısının alınması, tibbi xidmət, keyfiyyətli və uyğun bəslənmə və s. xərclərin bir nəticəsi olaraq görülür.

3. Mobillik xərcləri. Bu xərclər nisbətən aşağı əmək haqqı olan yerlərdən nisbətən yüksək əmək haqqı olan yerlərə köç etməyə səbəb olur.

İnsan kapitalının quruluşunu təhlil edərək, inkişaf amillərinə, yəni, investisiyalara diqqət yetirərək və eyni zamanda dünya ölkələrində insan kapitalının inkişaf vəziyyətini qiymətləndirmə ehtiyacını qəbul edərək deyə bilərik ki, insan kapitalının artan dəyəri sayəsində hazırda bu kimi məsələlərə xüsusi diqqət yetirilir. İnvestisiyaların böyük həcmi təhsil sektoruna cəlb edilir. Bilik müasir cəmiyyətin, xüsusən də indi, yeni bir iqtisadiyyatın formalaşması və qurulması dövründə vacib bir qaynaq olaraq qəbul edilir.

Müasir iqtisadiyyatın etibarlılıq və inkişaf dərəcəsi müxtəlif olan bir neçə forması vardır. Bu formalar adətən, insan kapitalının rolu və yeri ilə müəyyən edilir.

Müasir cəmiyyət ənənəvi olaraq, post-sənaye kimi qəbul edilir. Post-sənaye cəmiyyətinə uyğun gələn iqtisadiyyatın xarakterik xüsusiyyətlərindən biri də inkişaf etmiş ölkələrin ümumi işçi qüvvəsində və ÜDM-in həcmində birinci və ikinci dərəcəli sahələrin nisbi əhəmiyyətinin azalmasında özünü göstərən üçüncü dərəcəli sektorun - xidmət sektorunun aparıcı roludur.

Bilik iqtisadiyyatında ən vacib istehsal mənbəyi yalnız informasiya deyil, bir insanın mənimsədiyi, yəni, biliyə çevrilmiş məlumatlardır. Bilik iqtisadiyyatında böyümə və rəqabətlilik biliklərin yüksək texnoloji məhsullar və xidmətlər şəklində yaradılması, yayılması və tətbiqi ilə təmin edilir. Bilik bütün sahələr, sektorlar və iqtisadi proseslərin bütün iştirakçıları üçün əhəmiyyətli qaynaqdır. Yenilik tələb edən bir iqtisadiyyatın inkişafının ən yüksək mərhələsi bilik iqtisadiyyatıdır. Bu iqtisadiyyatda inkişafın əsas amilləri bilik və insan kapitalıdır. Belə bir iqtisadiyyat insan kapitalının keyfiyyətinin artırılması, həyat keyfiyyətinin yaxşılaşdırılması, yüksək texnoloji biliklərin, innovasiyaların və yüksək keyfiyyətli xidmətlərin istehsalı vasitəsi ilə inkişaf edir.

Bir fərdin mədəni kapitalı aşağıdakı göstəricilərlə xarakterizə olunur:

- İntellektual mədəniyyət (intellektual kapital);
- Təhsil mədəniyyəti (təhsil kapitalı);
- Əxlaqi və etik mədəniyyət (mənəvi və etik kapital);
- Simvolik mədəniyyət (simvolik kapital);
- Sosial mədəniyyət (sosial kapital).

Elmin inkişaf etməsi, informasiyaya əsaslanan cəmiyyətin mürəkkəb intensiv tərəqqi amilinin - insan kapitalının tərkib hissəsi kimi ön plana çəkilməsi ölkə iqtisadiyyatının yaradıcılığını və yeniliyə meylli qabiliyyətini müəyyən edən bilik, təhsil, sağlamlıq, əhalinin həyat keyfiyyətini və aparıcı mütəxəssisləri irəli sürdü. Dünya iqtisadiyyatının qloballaşması kontekstində insan kapitalı da daxil olmaqla, hər hansı bir kapitalın sərt beynəlxalq rəqabət şəraitində ölkədən ölkəyə, bölgədən bölgəyə, şəhərdən şəhərə sərbəst axışı elmi texniki tərəqqini sürətləndirdi.

Keyfiyyəti yüksək olan insan kapitalına sahib ölkələr, həyat keyfiyyətinin böyüməsi, bilik iqtisadiyyatı və informasiya cəmiyyətinin yaradılması, vətəndaş cəmiyyətinin inkişafı üçün sabit şərait yaratmaqda böyük üstünlüklərə malikdirlər. Yüksək keyfiyyətli insan kapitalı olan ölkələr dedikdə, yəni, savadlı, sağlam və nikbin əhali, hər cür iqtisadi fəaliyyətdə, təhsil, elm, idarəetmə və digər sahələrdə rəqabət aparan dünya səviyyəli mütəxəssisləri olan ölkələr nəzərdə tutulur.

İnsan kapitalının inkişafının əsas hərəkətverici qüvvələri investisiya, rəqabət və yenilikdir. Yenilikçi sektor cəmiyyətdə, dövlətin yaradıcı hissəsində, təşkilatlarda, ölkələrdə, bölgələrdə və dünyada inkişaf istiqamətini və sürətini təyin edən yüksək keyfiyyətli insan kapitalının yığılması mənbəyidir. Digər tərəfdən, yığılmış yüksək keyfiyyətə malik insan kapitalı innovasiya sistemi və iqtisadiyyatının əsasını təşkil edir.

İnsan kapitalının səmərəli işləməsi üçün təhlükəsizlik, ekologiya və mənzil şəraiti daxil olmaqla, rəqabətli bir həyat keyfiyyəti və dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq lazımdır. Əks təqdirdə, ən yaxşı mütəxəssislər yaşam üçün daha əlverişli və işləmək üçün daha rahat və təhlükəsiz olan ölkələrə gedirlər.

İnsan kapitalı əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilən investisiyalar, o cümlədən - təlim, təhsil, səhiyyə, bilik (elm), təşəbbüskarlıq bacarıqları, informasiya ilə təminat, təsirli bir elitanın formalaşması, vətəndaşların iş təhlükəsizliyinin təmin edilməsi və iqtisadi azadlığı və s. komponentlər hesabına formalaşır.

Miqrasiya prosesinində insan kapitalının formalaşmasında yeri danılmazdır. Onun axını insan kapitalının artmasına və ya azalmasına səbəb olur. İnsan kapitalı

deyəndə sadəcə insanların sayı, sadə əməyin işçiləri başa düşülmür. O peşəkarlığı, biliyi, məlumat xidmətlərini, sağlamlıq və nikbinliyi, qanuna tabe olan vətəndaşları, elitanın yaradıcılığını və səmərəliliyini və s. nəzərdə tutur.

İnsan kapitalının inkişafına təsir edən amillərdən biri də neqativ insan kapitalıdır. O, toplanmış insan kapitalının cəmiyyət, sərmayə, iqtisadiyyat üçün heç bir faydalı gəlir gətirməyən, əhalinin həyat keyfiyyətinin artmasına, cəmiyyətin və fərdin inkişafına mane olan hissəsidir. Cinayətkar, muzdlu qatil və oğru ilə dolu cəmiyyət, rüşvətxor məmurlar, narkotik və içki aludəçiləri yığılmış mənfi insan kapitalına böyük töhfə verirlər. Mənfi kapitalı isə əlavə investisiyalar vasitəsi ilə kompensasiya etmək mümkündür (Кристиневич С.А. 2011: с.48-56).

Xarici mühitdəki dəyişikliklərin gözlənilməzliyi şəraitində əsaslı yenilikçi və informasiya texnologiyalarının tətbiqi ilə xarakterizə olunan müasir iqtisadiyyatda insan kapitalının inkişafında ən vacib amillər bunlardır:

✓ Keyfiyyətcə yeni ümumi təhsil;

✓ kadrlara korporativ mədəniyyət aşılamaq;

✓ yaradıcılığın stimullaşdırılması və qeyri-standart qərarlar qəbul etmək bacarığı;

✓ personalın dəyişən şəraitə uyğunlaşma və xeyirxahlıq, inam və hörmət prinsipləri ilə başqaları ilə qarşılıqlı əlaqə qurma qabiliyyətinin inkişafı;

✓ korporativ və milli vətənpərvərlik tərbiyəsi;

✓ işçilərin strateji planlaşdırma, idarəetmə qərarlarının hazırlanması, mülkiyyətdəki pay iştirakında iştirakını asanlaşdıran demokratik bir idarəetmə sistemi.

Motivasiya da bir işçinin fəaliyyətinə təsir göstərən əsas amillərdən biridir. Əməyin nəticələrinin bilik və qazanılmış bacarıqlardan asılı olduğu aydındır. Lakin motivasiya insana məxsus əməyin mənbəyidir.

İnsan potensialını qiymətləndirmək üçün vahid bir metodologiya yoxdur. Lakin, müəlliflərin ayrı-ayrı baxışları var və onları ümumiləşdirmək olar. Ən geniş yayılmış metodlardan biri fərdin insan kapitalının hesablanılması və şirkətə məxsus

intellektual kapitalın tərkibində qiymətləndirilməsidir. V.Far, L.Dublin və başqa alimlər bu nəzəriyyəyə əsaslanıblar.

İnsan kapitalını ölçməyə istiqamətlənmiş metodların bir sıra əhəmiyyətli çatışmazlıqları vardır. Ona görə də insan kapitalını dəyərləndirmək, onu qiymətləndirmək fikri bir qədər yalnış görünür.

Ekspert metodu (keyfiyyəti qiymətləndirmə metodu) bir insanı qiymətləndirməyə yönələn metodlar içərisində vacib halqadır. Mövcud modellərə əlavə olaraq, bu metod insan kapitalının keyfiyyətinə, onun tərkibinə ən obyektiv qiyməti verir.

Qiymətləndirmə metodu böyük şirkətlər üçün əlverişlidir. Belə ki, o, insan kapitalını fiziki kapitala bənzətmək yolu ilə obyektiv qiymətləndirməyə, işçilərin iş müddətinin təyin edilməsinə, yəni, köhnəlmə və biliklərin unudulması nisbətini hesablamaq üçün sərfəli metodun seçilməsinə, eyni zamanda mühasibat işinin mürəkkəbliyi, ağır qiymətləndirmə hallarında daha uyğundur.

İnsan davranışının fəaliyyəti nəticəsində yaranan və ona təsir göstərən amillər şərti olaraq qruplara bölünə bilər: bioloji, sosial, fizioloji, psixoloji.

İnsan kapitalının obyektiv və etibarlı qiymətləndirilməsi, uğursuzluğa məhkumdur. Çünki insan fəaliyyətinin nəticələri müvafiq miqdarda deyil, çox sayda fərqli faktorun təsirini göstərir.

İnsan kapitalını qiymətləndirməyin çətin olması bir insanın rəsmiləşdirilməsi və dəyərini ölçmək cəhdindən imtina edilməlidir demək deyil. Əlbəttə yox. Lakin, insan kapitalının keyfiyyət xüsusiyyətlərinin qiymətləndirilməsi insan kapitalını qiymətləndirən modellərin əsasını təşkil edir. Onlar vacibdir və bu modellərin istifadəsi daha çox daxili idarəetmə üçün xarakterikdir. İnsan kapitalını qiymətləndirilmək üçün əvvəlcə şirkət ədalətli dəyəri formalaşdırmalıdır və qiymətləndirmə hərtərəfli olmalıdır.

A. Smit, J. Sey, K. Marks, A. Marşal və s. kimi dünya alimləri ideal sərvətin iqtisadi və sosial öyrənilməsi problemini ortaya qoymağa çalışdılar. O dövrdə də müxtəlif məqsədlərə görə insan potensialı anlayışı işlədilirdi. Bura təbii fəlakətlərin, müharibələrin səbəb olduğu müəyyən xalqa aid itkiləri müəyyənləşdirmək, bir

yerdən digərinə köçən insanların malik olduqları iqtisadi faydanı ölçmək, səhhətlərinin qayğısına qalmaq, iqtisadiyyatda mühim rol oynayan insan ömrünün əhəmiyyətini, ondan əldə olunan biləcək faydanı hesablamaq kimi məqsədlər daxildir.

ÜDM, ÜMM, işsizlik, yoxsulluq, yaşayış səviyyəsi, mənfəət və digər MHS-nın göstəricilərini ölçməyə görə müxtəlif metodlar mövcuddur. Bununla yanaşı, ümumi kapital məhsulunun yaradılmasında insan kapitalının rolu indi də lazımi dəqiqliklə ölçülə bilmir. Misal üçün bir ölkənin milli sərvətindəki insan kapitalının payında işçilərin bilikləri, əməklərinin dəyəri tam əks oluna bilmir. İşçi iqtisadi idarəetmə prosesinin ən önəmli qaynağı hesab olunur ki, bu da ölçü sahəsində tez-tez əks olunmur, yəni, ondan kənarda qalır.

BMT insan imkanlarını, onun əsas şərtlərini nəzərə almaqla dünyanın bütün ölkələrinə İnsan İnkişafı İndeksini (İİİ) hesablamağı məsləhət gördü. İnsan inkişafının əsas meyarlarını rəsmiləşdirən riyazi metodlar əsasında ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsini obyektiv qiymətləndirmək üçün insan inkişafı indeksinin (İİİ) hesablanması metodologiyasından istifadə olunur. Bu göstərici üç ayrılmaz göstəricini özündə birləşdirir: ABŞ dolları ilə alış qabiliyyəti paritetində adambaşına düşən ÜDM ilə müəyyən edilən gəlir indeksləri, ömür uzunluğunun göstəricisi kimi təyin olunan uzunömürlülük, 6 yaşdan 23 yaşadək bütün uşaqlar və gənclər arasında savadlılıq dərəcələri və qeydiyyatla ölçülən təhsil. İİİ-nin yekun dəyəri yuxarıdakı komponentlərin aritmetik ortalaması kimi hesablanır və insan inkişaf səviyyəsinə görə ölkələri təsnif etmək üçün bir meyar kimi istifadə olunur. İİİ-nin aşağıdakı sərhəd dəyərləri müəyyən edilmişdir:

0.8 < İİİ < 1 - insan inkişafı səviyyəsinin yüksək olduğu ölkələr;

0.500 < İİİ < 0.799 - insan inkişafının orta səviyyəsinə sahib ölkələr;

İİİ < 0.500 - aşağı inkişaf ölkələri.

İnsan inkişafı göstəricilərinin müqayisəsi əsasında müxtəlif ölkələrdəki sosial-iqtisadi proseslərin bu cür sistematik müqayisəli təhlili insan inkişafı proqramlarının prioritetini nisbətən obyektiv qiymətləndirməyə və əsas hədəflərə çatmağı qiymətləndirməyə imkan verir.

Bir sıra göstəricilər vardır ki, insan kapitalını xarakterizə edir. Onlara bunlar aiddir.

1. Əhalinin həyat keyfiyyəti və yaşayış şəraiti:

- zəka: təhsil, ixtisas, bilik və peşə təcrübəsi;

- insan fiziologiyası: sağlamlıq, uzunömürlülük, xəstələnmə, xəsarət, əlillik;

- təşkilatçılıq bacarıqları: idarəetmə, münasibətlər, əlaqələr və s.

2. Əhali imkanları:

- investisiya xərcləri və keçmiş insan kapital xərclərinin dəyəri;

- maliyyə kapitalına sahiblik: pul və valyuta, qiymətli kağızlar, investisiyalar, səhmlər, kreditlər və digər aktivlər;

- qeyri-maliyyə kapitalına sahiblik: torpaqlar, əsas fondlar, qeyri-maddi mənbələr (patentlər) və ehtiyatlar və s.;

3. İnsan, maliyyə və qeyri-maliyyə potensialından səmərəli istifadə;

4. İnsan, maliyyə və qeyri-maliyyə kapitalının istifadəsinin intensivliyi (https://kamen-sa.ru/az/sposoby-ocenki-i-investirovanie-chelovecheskogo-kapitala-ocenka/).

Kadrlarla işin və iqtisadi idarəetmənin faydalılığının yüksəldilməsində göstəricilər sisteminin əhəmiyyətli rolu vardır.

Beləliklə, bilik kapitalını əmələ gətirən tərkib hissələri ayrı-ayrılıqda qiymətləndirməyin mümkün olmadığı aydındır. Əgər bir şirkət daxilində insan kapitalına yanaşsaq, bilik kapitalının qiymətləndirilməsi hərtərəfli olmalıdır və birinci növbədə o, şirkətin ədalətli dəyərinin formalaşmasına, yəni xarici istifadəçilərə obyektiv məlumatların təqdim edilməsinə istiqamətlənməlidir.

# II FƏSİL. İQTİSADİYYATDA İNSAN KAPİTALINA İNVESTİSİYA QOYULUŞLARININ TƏSİRİ İMKANLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. İqtisadiyyatda insan kapitalına təsir edən amillərin təhlili

İnsan kapitalı, fond göstəriciləri və investisiya göstəriciləri olaraq iki qrupda toplanan göstəricilər ardıcıllığı ilə ölçülür. İnsan kapitalı göstəricilərini təyin edərkən insan kapitalı elementlərindən daha çox təhsilə diqqət yetirildiyi müşahidə edilmişdir. Çünki fərd tərəfindən təhsil bilik və bacarıqların ən vacib mənbəyi olduğundan, ümumiyyətlə, insan kapitalı təhsil göstəriciləri ilə təmsil olunur (Atik, 2006: s.24).

Bu mənada fond göstəriciləri kapitalın təhsil səviyyəsi ilə əlaqədardır, investisiya göstəriciləri isə təhsil xərclərindən ibarətdir.

Fond göstəriciləri təhsil səviyyəsi göstəricilərindən və savadlılıq göstəricilərindən ibarətdir.

İnsan kapitalı ilə əlaqəli təməl investisiya göstəriciləri maddi və qeyri-maddi göstəricilər olaraq iki qrupa bölünür. Maddi göstəricilər təhsillə əlaqəli mal və xidmətlərə özəl və dövlət xərcləri, təhsilə aid humanitar yardımların vasitəsi ilə insan resurslarının inkişafına yönələn xüsusi xərclər şəklində qruplaşdırıla bilər. Buna görə maddi göstəricilər təhsilin ÜDM-də payı, bir tələbə üçün təhsil xərcləri və müəssisələrin təhsil xərcləri kimi göstəricilərdən ibarətdir.

Qeyri-maddi göstəricilər isə iş ilə bağlı təhsildə iştirak, təhsilə ayrılan vaxt, işlə əlaqəli təlim vaxtı və məktəbə qəbul nisbəti kimi göstəricilərdən ibarətdir (Atik, 2006: 12-14).

Bilik istehsalı, insan kapitalı və texnoloji tərəqqinin əhəmiyyət qazandığı və ölkələri sənaye cəmiyyəti səviyyəsinə daşıyan inkişaf mərhələsi olaraq bilinən bilik cəmiyyətində fiziki kapital və təbii qaynaqların əhəmiyyətinin getdikcə azaldığı görülməkdədir. Bu elementlərin yerini bilik və insan kapitalı almaqdadır. (Yumuşak ve Tuna, 2002: s.5).

İnsan kapitalı istehsal amillərinin daha səmərəli istifadəsinə imkan verir və mövcud insan gücünün keyfiyyəti, miqdarı, peşəkar biliyi və sağlamlıq vəziyyəti ilə sosial münasibətlərin cəmindən ibarətdir (Karadeniz, 2007: s.12).

İnsan kapitalı zamanla fiziki kapitaldan ayrı bir istehsal faktoru olaraq meydana çıxdı (Atik, 2006: s.24).

Biliyin əsas istehsal faktoru olduğu informasiya cəmiyyətində fiziki kapital və təbii resursların əhəmiyyəti tədricən azaldıqca, bilik istehsalı və insan kapitalı daha çox əhəmiyyət qazanmışdır.

**İnsan kapitalının yığılmasına təsir edən amillər:** İnsan kapitalının formalaşmasında və insan kapitalının artmasında rol oynayan amilləri, əsasən, təhsil, səhiyyə və əmək transferi kimi üç hissədə araşdıra bilərik.

**Təhsil və insan kapitalı**: Təhsil işçi qüvvəsinin ixtisaslı olmasında rol oynayan ən vacib amillərdən biridir. Buna görə də insan kapitalını araşdıran bir çox tədqiqat ümumiyyətlə təhsilə istiqamətlənməkdə və sözügedən çalışmalarda təhsillə insan kapitalı anlayışı bərabər mənalı olaraq işlənməkdədir (Atik, 2006: s.20).

Bir ölkədəki təhsil səviyyəsini təyin edən əsas meyarlar təhsil qeydləri, təhsil səviyyəsi, maddi və fiziki göstəricilərlə savadlılıq statusudur (Karagül, 2002: s.39).

Təhsil qeydləri bir ölkədə əhalinin müxtəlif təhsil səviyyələri arasında paylanmanı göstərir. Təhsil səviyyəsinə görə, ümumiyyətlə, orta təlim dövrü nəzərdə tutulur. Maliyyə göstəriciləri təhsil xərclərinə aiddir. Təhsil xərclərinin ÜDM-də payı və adambaşına düşən təhsil xərcləri ən vacib maliyyə göstəricilərindəndir. Bu göstəricilər həm də ölkələr arasında müqayisə aparılmasını asanlaşdırır. Fiziki göstəricilər bir ölkədəki tələbə və müəllim sayı, tələbə və müəllim nisbəti, məktəb sayı, laboratoriya və kompüter sayı kimi göstəricilərdir. Savadlılıq nisbəti isə bir ölkənin təhsil səviyyəsini və insan kapitalı fondunu ölçmək üçün istifadə edilən ən sadə göstəricidir (Atik, 2006: s.21).

İnsan kapitalının təkmilləşdirilməsi prosesində təhsilin rolu danılmazdır. Hazırki dövrdə təhsil bütün dünya ölkələrinin iqtisadi və mədəni inkişafının təməlində duran əsas göstəricilərindəndir. Məlum məsələdir ki, ölkənin inkişafına təkan verə biləcək istənilən sektorda uğur əldə etmək üçün savadlı kadrların

gücündən istifadə olunur. Beləliklə, insanların həyatındakı uğuru təhsil ilə əlaqələndirmək mümkündür. Bunun ən bariz nümunəsini dünyanın ən güclü təhsil sistemlərindən biri olan Yaponiya təhsil sisteminə hökumətin verdiyi dəstək və ortaya çıxan nəticələrdə görmək olar. Məlumdur ki, ölkəmizdə ali və orta təhsil alanlar tələbələrin sayı, həmçinin xarici ölkələrə gedərək təhsil alanların sayı il keçdikcə artmaqdadır. Bu göstəricilər cavan nəslin peşə yüksəlişini, yüksək hazırlığını təkmilləşdirmək üçün təməl məqamlardan hesab olunur.

Azərbaycanda təhsil sahəsində işləyənlərin sayına gəldikdə 2019-2020-ci illərdə dövlət ali təhsil müəssisələrində professor - müəllim heyətinin say tərkibi 13578 nəfər olmuşdur (Cədvəl 1).

**Cədvəl 1: Dövlət ali təhsil müəssisələrində professor-müəllim heyətinin sayı (tədris ilinin əvvəlinə; min nəfər)**

| | 2018/2019 | 2019/2020 |
|---|---|---|
| Ali təhsil müəssisələrində professor-müəllim heyətinin sayı (əsas heyət) - cəmi | 13477 | 13578 |
| onlardan: | | |
| elmi dərəcəsi olanlar: | | |
| elmlər doktoru | 1176 | 1107 |
| fəlsəfə doktoru | 5499 | 5519 |
| elmi adı olanlar: | | |
| Professor | 1078 | 1039 |
| Dosent | 3637 | 3878 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/education/, (21.10.2020)

Yuxarıda qeyd olunan 13578 nəfərdən elmi dərəcəsi olanların içərisindən 1107 nəfər elmlər doktoru, 5519 nəfər fəlsəfə doktoru, elmi adı olanlardan 1039 nəfər professor, 3878 nəfər isə dosent olmuşdur. Üfüqi təhli zamanı görürük ki, 2018-2019-cu tədris ilində ali təhsil müəssisələrində professor-müəllim heyətinin sayı 13477 nəfər olmuşdusa, 2019-2020-ci tədris ilində artaraq 13578 nəfər olmuşdur. Orta ixtisas müəssisələrinin təhlilində görürük ki, orta ixtisas müəssisələrində də professor - müəllim heyətinin ümumi sayında artım müşahidə edilmiş, yəni ümumi say 2018-2019-cu tədris ilində 5517 olmuşdusa, 2019-2020-ci tədris ilində 5809 olmuşdur. Buradan belə nəticəyə gəlirik ki, Ali təhsil

müəssisələrində müəllim-professor heyətinin say artımı 0,7% olmuşdur. Bu göstərici ölkəmizdə elmə, təhsilə olan marağın artım trendində olduğunu əks etdirir.

Təhsilin səviyyəsinin qiymətləndirilməsi zamanı ən çox gözə çarpan göstəricilərdən biri də təhsil müəssisələrini bitirib işləyən şəxslərin təhsil göstəriciləridir. Biz əsas diqqəti bakalavr və magistr təhsil pillələrini bitirən mütəxəssislərin ümumi sayından təhsilin səviyyəsi üzrə diplom alanların say nisbətinə yönəltmək istəyirik.

**Qrafik 1: Ali təhsil müəssisələrini bitirən mütəxəssislərin ümumi sayından təhsilin səviyyəsi üzrə diplom alanlar (bakalavr, magistr) (min nəfər)**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/education/, (21.10.2020)

Magistr səviyyəsi üzrə diplom alanların sayında son illərdə ciddi artım müşahidə edilir. Bu da keyfiyyətli işçi qüvvəsi bazasının formalaşmsına səbəb olur. Ancaq ən çox sual doğuran məsələlərdən biri pandemiya dövründə təhsilin səviyyəsi və nəticələrinin hansı şəkildə təsir etməsi ilə bağlıdır. Bu problemin nəticələrini görmək üçün təəssüf ki, bir-neçə il gözləməli olacağıq.

İqtisadi inkişafın davamlılığı üçün insan kapitalı kimi fərdin fəaliyyətini maksimuma çatdıracaq bilik ilə təchiz edilməsi, yəni təhsillə təchiz olunması gərəklidir.

2025-ci ildə Azərbaycanda keçiriləcək “Expo-2025” Ümumdünya Sərgisi “İnsan kapitalının inkişaf etdirilməsi, daha yaxşı gələcəyin qurulması” mövzusuna dair təşkil olunacaqdır. Bu sərgidə dünyaca məşhur universitetlərin və müəssisələrin üzvləri, tanınmış alimlər, bilim adamları, eyni zamanda, insan resurslarını yüksək səviyyədə idarə edən menecerlər iştirak edəcəklər ki, bu da, ölkəmiz üçün qarşıdakı illər ərzində təhsil üzrə mühim addımların atılmasını zəruri edir.

**Səhiyyə və insan kapitalı**: Sağlamlıq Mushkin (1962), Becker (1964) və Grossman (1999) tərəfindən insan kapitalına dair mühüm bir amil olaraq qəbul edilmişdir. Çünki fərdlər həm təhsil ala bilmək, həm də iqtisadi fəaliyyətlə məşğul olmaq qabiliyyətinə malik olmaq üçün sağlam olmalıdır. Sağlam bir əhali ölkələrin insan kapitalının yığılmasına kömək edən əsas amildir (Atik, 2006: s.21).

İnsan kapitalı yanaşmasının öncüllərindən biri olan Schultz, səhiyyə xidmətləri məqsədi ilə qurulan müəssisələri kapital qoyuluşu kimi qəbul edir. Schultz səhiyyə xidmətlərini insanın iş səmərəliliyinin qorunması və inkişafı sayəsində insanlara bir sərmayə olaraq qiymətləndirmişdir (Atik, 2006: s.56).

Muşkinə görə, səhiyyə sahəsindəki investisiyalar fərdlərin iş gücünü qoruyur və illərlə geri dönməyə davam edir.

Ölkələr arasında müqayisədə istifadə edilən ən vacib sağlamlıq göstəriciləri əhali artım sürəti, şəhərləşmə sürəti, doğum səviyyəsi, ölüm səviyyəsi, körpə ölüm sürəti, ümumi məhsuldarlıq səviyyəsi, doğumdan sonra gözlənilən ömür müddəti, səhiyyə xərclərinin ÜDM-də payı və adambaşına səhiyyə xərcləridir.

Səhiyyə xidmətlərinin inkişafı hazırkı Covid-19 pandemiyası dövründə daha da böyük əhəmiyyət kəsb edir. Pandemiyanın bütün ölkə ərazisində yayılması yeni tipli xəstəxanaların tikintisi prosesini sürətləndirdi. Çünki xəstəxanalarda olan cari çarpayı sayları koronavirusa yoluxan xəstələrin tamamilə yerləşdirilməsi və digər xəstəlikləri olan insanlara xidmət etmək üçün kifayət etmirdi.

**Cədvəl 2: Müstəqil Dövlətlər Birliyinə üzvü olan ölkələr üzrə əhalinin xəstəxana çarpayıları ilə təminatı (ilin əvvəlinə, əhalinin hər 10 000 nəfərinə)**

| | Xəstəxana çarpayılarının sayı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
| Azərbaycan | 76 | 51 | 47 | 47 | 47 | 49 | 47 | 47 | 45 | 45 | 45 |
| Belarus | 111 | 115 | 113 | 113 | 39 | 87 | 86 | 85 | 84 | 84 | 84 |
| Ermənistan | 37 | 37 | 37 | 40 | 42 | 42 | 42 | 42 | 42 | … | 40 |
| Qırğızıstan | 51 | 51 | 50 | 57 | 48 | 47 | 45 | 44 | 43 | 42 | 41 |
| Qazaxıstan | 76 | 72 | 71 | 67 | 63 | 60 | 58 | 56 | 55 | 48 | 52 |
| Moldova[1)] | 62 | 62 | 62 | 62 | 58 | 57 | 53 | 53 | 52 | 51 | 68 |
| Özbəkistan | … | 48 | 47 | 46 | 44 | 42 | 41 | 41 | 42 | 41 | ... |
| Rusiya | 97 | 94 | 94 | 93 | 91 | 87 | 83 | 82 | 81 | 80 | 80 |
| Tacikistan | 51 | 50 | 49 | 31 | 47 | 46 | 46 | 46 | 45 | … | 43 |
| Ukrayna | 94 | 94 | 91 | 89 | 88 | 79 | 78 | 74 | 73 | 71 | ... |

1)Dnestr çayının sol sahili və Bender şəhəri üzrə məlumatlar istisna olmaqla,
**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/healthcare/, (02.02.2021)

Yuxarıdakı cədvəldən də görünür ki, Azərbaycan əhalinin hər 10.000 nəfərinə düşən çarpayı sayına görə MDB-də 5-ci sıradadır. Bu göstərici o qədər də qənaətbəxş hesab olunmur. Ancaq diqqət etsək, görərik ki, bu göstərici 2020-ci ilin əvvəlinə olan göstəricidir. Hansı ki, yuxarıda qeyd etdiyimiz kimi, 2020-ci il ərzində bir sıra yeni müasir tipli xəstəxanalar tikilərək təhvil verimişdir.

Digər bir göstərici isə, ölkədə hər 10.000 nəfərə düşən həkimin sayı göstəricisidir. Hansı ki, bu göstərici səhiyyə xidmətinin səviyyəsinin təməl göstəricilərindən hesab olunur (Cədvəl 3).

**Cədvəl 3: Müstəqil Dövlətlər Birliyinə üzvü olan ölkələr üzrə əhalinin həkimlər ilə təminatı (ilin əvvəlinə, əhalinin hər 10 000 nəfərinə)**

| | Həkimlərin sayı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
| Azərbaycan | 37 | 37 | 35 | 35 | 35 | 35 | 34 | 33 | 33 | 33 | 32 |
| Belarus | 54 | 54 | 51 | 52 | 39 | 41 | 43 | 44 | 44 | 45 | 46 |
| Ermənistan | 41 | 42 | 41 | 43 | 42 | 43 | 44 | 44 | 44 | … | 45 |
| Qırğızıstan | 24 | 24 | 24 | 24 | 24 | 23 | 23 | 23 | 22 | 22 | 22 |
| Qazaxıstan | 38 | 39 | 38 | 38 | 39 | 40 | 40 | 42 | 40 | 40 | 40 |
| Moldova[1)] | 36 | 36 | 36 | 36 | 36 | 38 | 37 | 37 | 37 | 36 | 49 |
| Özbəkistan | … | 27 | 28 | 27 | 27 | 26 | 26 | 26 | 26 | 27 | … |
| Rusiya | 50 | 50 | 51 | 49 | 49 | 49 | 46 | 46 | 48 | 48 | 49 |
| Tacikistan | 19 | 20 | 21 | 20 | 20 | 21 | 21 | 21 | 21 | … | 21 |
| Ukrayna | 49 | 49 | 49 | 48 | 48 | 44 | 44 | 44 | 44 | 44 | … |

1)Dnestr çayının sol sahili və Bender şəhəri üzrə məlumatlar istisna olmaqla,
**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/healthcare/, (02.02.2021)

Cədvəldən göründüyü kimi, Azərbaycan əhalinin hər 10000 nəfərinə düşən həkim sayına görə MDB-də yalnız Tacikistan və Qırğızıstandan öndədir. İqtisadi inkişafa görə bizə heç bir formada yaxınlaşa bilməyən bir sıra ölkələrdə isə, həkim sayı bizim ölkəmizdən daha çoxdur. Bu göstərici səhiyyə sistemində mütləq surətdə innovativ dəyişikliklərin həyata keçirilməsinin vacibliyini özündə göstərir.

Əmək transferi və insan kapitalı - ölkələrin insan kapitalı ehtiyatlarını artıran digər bir amil də əmək transferidir. Əmək transferi iki yolla baş verir. Birincisi, beyin axını şəklində müəyyən sahələrdə ekspert biliklərinə sahib olan işçi qüvvəsinin daha yaxşı şərtləri olan ölkələrə getməsidir. İkincisi, ixtisassız işçi qüvvəsinin nisbətən çox olduğu ölkələrdən az olduğu ölkələrə doğru meyl etməsidir.

Əmək transferinin müxtəlif səbəbləri var. Bunlar müharibələr, əhali artım tempinin yavaşlaması, idxal olunan insan kapitalının bəzi üstünlükləri, inkişaf etmiş ölkələrdə istehsal və ticarət quruluşundakı dəyişiklik və ölkələr arasındakı ticarət fərqləridir. Xüsusilə az inkişaf etmiş ölkələrdə ixtisaslı işçi qüvvəsi daha yaxşı

sosial-iqtisadi şərtlərə nail olmaq üçün inkişaf etmiş ölkələrə köç edir. İEOÖ bu cür beyin axınına görə əhəmiyyətli itkilər verirlər.

İnsan kapitalının iqtisadi artımdakı rolu və yeri ilə bağlı işlər 1960-cı illərdə Schultzun əsərlərində görülür. Tədricən inkişaf edən və yenilənən dünya dövlətləri ilə rəqabət apara bilmək üçün iqtisadi cəhətdən inkişaf etmək lazımdır. Bu böyümənin ən vacib mənbələrinin bilik, texnoloji inkişaf və insan kapitalı olduğunu araşdırmalar göstərir. Texnologiyanın Çin və Hindistan kimi ölkələrdə iqtisadi inkişafa verdiyi töhfə müşahidə olunmaqdadır.

Texnologiyanın böyümədəki payını inkar edə bilməyən dəlillər vardır (Mani 2010).

İnsanlara təhsil və sağlamlıq kimi dövlətlərin artan investisiyalarının səbəbi, biliyin digər istehsal faktorlarına görə daha faydalı olmasından qaynaqlanır. Bu detal və fərqlilik uzun müddətdə daha çox özünü göstərir. Kendrick, əsərlərində 1890-1990-cı il arasında ABŞ-da iqtisadi artımın 44,2% -nin texnoloji inkişafın payına düşdüyü qənaətinə gəlmişdir (Kendrick 1993).

Becker kimi Lucas da insan kapitalının iqtisadi böyüməyə təsirinin yalnız investisiya yatırılan nəsildə deyil, sonrakı nəsillərdə davam edə biləcəyini müdafiə etdi.

Lukasın fikrincə, iqtisadi böyümənin əsas amili təhsilə yatırımlarla insan resurslarının inkişafıdır (Lucas 1988).

1960-cı ildən sonra təqribən 100-dən çox ölkədə təhsilə qoyulan investisiyalar sonrakı illərdə iqtisadiyyatın böyüməsində mühüm rol oynayan amil olmuşdur.

Belə qənaətə gəlmək olur ki, təhsilli şəxslər savadlı əhalini təşkil edir. Təhsilli bir əhali isə dolayı yolla iqtisadi böyüməyə təsir göstərə bilər. İqtisadiyyatdakı müsbət böyümə insan kapitalının müsbət böyüməsi ilə, insan kapitalının müsbət böyüməsi isə ölkənin istedad və bacarıqlarının inkişafı yolu ilə əldə edilir. Təhsil yolu ilə fərdin bilik, bacarıq və qabiliyyətini inkişaf etdirmək, onu artırmaq mümkündür. Lakin məlumatlı və savadlı bir cəmiyyətə keçidin ən vacib şərtlərindən biri biliyə qoyulan yatırımlardır.

İqtisadi böyüməyə insan kapitalı vasitəsi ilə nisbətən təsir edən başqa bir amil

məşğulluq imkanlarının dəyişməsidir. İnsan kapitalına edilən investisiyalar nəticəsində məhsul olaraq əldə edilən ixtisaslı işçi qüvvəsi indi daha qısa müddətə işsiz qalır və yeni iş sahələrində işlə təmin edilə bilir. İnsan kapitalı ilə iqtisadi artım arasındakı münasibəti araşdırmaq üçün aparılan işlər ümumiyyətlə təhsil ilə insan kapitalı, təhsil ilə iqtisadi artım və insan kapitalı ilə iqtisadi artım arasındakı əlaqəyə diqqət yetirdi. Xüsusilə insan kapitalı ilə iqtisadi artım arasındakı əlaqələrə dair araşdırmalarda daha həlledicidir.

**Cədvəl 4: İnsan inkişafı kataloqu**

| Ölçü | Səhiyyə | Təhsil | | Gəlir (həyat standartı) |
|---|---|---|---|---|
| Göstəricilər | Doğuşdan gözlənilən ömür müddəti | Gözlənilən təhsil müddəti | Orta təhsil müddəti | Adam başına ÜDM (ABŞ, $) |
| Alt göstəricilər | Sağlamlıq alt indeksi | Təhsil alt indeksi | | Gəlir alt indeksi |

**Mənbə:** Human Development Report 2010: 215.

**Demoqrafiya:** Səhiyyə, təhsil, əmək, kapital, şəhərsalma, sənayeləşmə kimi bir çox iqtisadi və sosial məsələnin tənzimlənməsində və dəyişdirilməsində əhalinin təsiri böyükdür.

Əhalinin ölkələr üçün əhəmiyyəti həmişə mövcud olmuşdur. Yalnız son vaxtlar daha çox üstündə durulmuşdur. Dünya əhalisi zamanla artmaqdadır, buna görə su, enerji və torpaq kimi az mənbələrə ehtiyac da artır. Bu səbəbdən ölkələrin iqtisadi siyasətlərinin təşkilində iqtisadi amillər mühüm rol oynayır.

Əhali artımının müsbət nəticələrindən danışılırsa;

- ✓ İstehsal artır;
- ✓ bazar genişlənir;
- ✓ vergi gəlirləri artır;
- ✓ işçi qüvvəsində fərqli fikirlər, daha gənc, daha dinamik düşüncələr ortaya çıxır;
- ✓ işçi qüvvəsi ucuz olduğu üçün ixracın rəqabət qabiliyyəti artır.

Əhali artımının mənfi nəticələri;

- ✓ Təhsil, səhiyyə və enerji kimi sahələrdə infrastruktur investisiyalarının artırılmasını tələb edir;

- ✓ daxili istehlak artır, dolayısıyla idxal artır, ixracat azalır, xarici ticarət kəsiri böyüyür;
- ✓ adambaşına gəlir azalır;
- ✓ ölkənin inkişafını ləngidir;
- ✓ işsizlik artır;
- ✓ mənzil çatışmazlığı səbəbindən planlaşdırılmamış şəhərsalma baş verir.

Ölkələr üzrə demoqrafik siyasətlərin qurulmasında istifadə edilən ilkin mənbə demoqrafik göstəricilərdir. Hökumətlərin demoqrafik siyasətlərində bir-neçə istiqamət var. Bəzi ölkələrdə qadınların statistikada sayı çoxdur və belə ölkələrdə yeni doğulan oğlan uşaqlarına görə müavinətlər verilir.Bəzi ölkələrdə (Çin) doğum sayı çox olduğundan demoqrafik böhranın qarşısını almaq üçün 2-dən çox uşağı olan ailələrdən vergi tutulur. Bəzi ölkələrdə isə (Qərbi Avropa ölkələri) doğum sayı ölüm sayından az olduğu üçün stimullaşdırıcı tədbirlər həyata keçirilir.

**Cədvəl 5: 2019-cu ildə dünya ölkələri üzrə bəzi demoqrafik göstəricilər**

| Ölkələr | 2019-cu ildə əhalinin orta illik sayı (mln nəfər) | Əhalinin hər 1000 nəfərinə | | | Doğulanda gözlənilən ömür uzunluğu (yaş sayı) | |
|---|---|---|---|---|---|---|
| | | təbii artım | doğulanlar | ölənlər | Kişilər | Qadınlar |
| **DÜNYA ÜZRƏ CƏMİ** | **7691,0** | **12,0** | **19,0** | **7,0** | **70** | **75** |
| Azərbaycan | 10,1 | 8,7 | 14,3 | 5,6 | 74 | 79 |
| Ermənistan | 3,0 | 3,0 | 12,0 | 9,0 | 76 | 81 |
| Gürcüstan | 4,0 | 1,0 | 14,0 | 13,0 | 78 | 83 |
| Türkiyə | 82,6 | 10,0 | 15,0 | 5,0 | 77 | 81 |
| Qazaxıstan | 18,5 | 16,0 | 23,0 | 7,0 | 70 | 75 |
| Qırğızıstan | 6,5 | 20,0 | 25,0 | 5,0 | 77 | 84 |
| Tacikistan | 9,2 | 21,0 | 25,0 | 4,0 | 61 | 66 |
| Türkmənistan | 5,9 | 17,0 | 24,0 | 7,0 | 72 | 76 |
| Özbəkistan | 33,5 | 17,0 | 22,0 | 5,0 | 79 | 85 |
| Belarus | 9,5 | -3,0 | 10,0 | 13,0 | 69 | 79 |
| Ruminiya | 19,4 | -3,0 | 9,0 | 12,0 | 72 | 79 |
| Rusiya Federasiyası | 146,7 | -2,0 | 11,0 | 13,0 | 68 | 78 |
| Slovakiya | 5,5 | 1,0 | 11,0 | 10,0 | 74 | 80 |
| Ukrayna | 42,0 | -6,0 | 8,0 | 14,0 | 67 | 77 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/demoqraphy/ , Population Reference Bureau - "World population data sheet - 2019" (https://www.prb.org/worldpopdata/)

Yuxarıdakı cədvəldən də göründüyü kimi, Azərbaycan əhalinin hər 1000 nəfərinə görə təbii artımında 8,7 ilə Qafqazda 1-ci sıradadır. Bunun əsas səbəbi ölənlərin sayının az olmasıdır. Diqqət etsək görərik ki, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrində təbii artım göstəricisində kəskin fərqlər var. Bu həm milli-etnik, həm də dini səbəblərdən irəli gələn faktorlarla izah oluna bilər. Azərbaycanda təbii artım ümumi dünya göstəricisindən aşağıdır. Eləcə də, gözlənilən ömür uzunluğu göstəricisində də, ümumi dünya göstəricisindən üst səviyyədə yerləşirik.

Əhali artımının nəticələri müqayisə edildikdə mənfi nəticələrin üstünlük təşkil etdiyi görülür. Ancaq bunların bir iqtisadiyyata təsirini həmin ölkədə həyata keçirilən siyasətlər və əhalinin məhsuldarlığı dəyişdirir. İnfrastruktur xərclərinin artması ölkə üçün böyük bir xərc olmasına baxmayaraq, düzgün qiymətləndirildikdə geri dönüş daha çox olacaqdır. Və ya əksinə, ucuz işçi qüvvəsindən düzgün istifadə edilməzsə, ortaya çıxan yalnız fərdlərin daha az gəlirə malik olub həyat rifahından və gəlir bərabərliyindən uzaq qalması olar.

**Gəlir bölgüsü:** Ölkənin gəlirlərinin ölkənin fərdləri arasında bölgü formasıdır. Gəlir bərabərsizliyi, ölkənin gəlirlərinin ölkənin fərdləri arasında ədalətli bölgüsünün olmadığını göstərir. İnsan kapitalının ən vacib komponentlərindən biri olan təhsil səviyyəsi gəlir bölgüsünə təsir edən amillərdən biridir. Bir ölkədə təhsil səviyyəsində artım həm də gəliri artıracaqdır. Həm məhsuldarlığın artması ilə, həm də savadlı insanların əmək haqqı gözləntilərinin yüksəlməsi ilə təhsil gəlir bölgüsünə böyük dərəcədə təsir göstərir.

İşləyən şəxslər sistem ədalətli olduğu müddətcə özlərini işlərinə daha yaxşı verirlər və beləliklə məhsuldarlıq artır. Gəlir paylanması yaxşılaşdırılmasa cəmiyyətdə siniflərin yaranması da mümkündür. Bir tərəfdə tortun böyük dilimini alan kiçik bir sinif, digər tərəfdə kiçik bir dilim ilə sağ qalmağa çalışan böyük bir izdiham. Əllərində tortun çox hissəsi olanlar bundan sui-istifadə edə və iqtisadiyyata mənfi təsir göstərə bilər. Zəhmətlərinin dəyərsiz olduğunu düşünənlərin müxtəlif fəsadlarla gəlir səviyyəsini dəyişdirməyə çalışması da sosial dəyişənlər vasitəsilə iqtisadi inkişafa mənfi təsir göstərə bilər. Bu mənada hər bir ölkə üçün gəlir

paylanmasında bərabərliyin və ədalətin təmin edilməsi həll edilməli olan vacib məsələlərdən biridir.

**Şəkil 1: Texnoloji inkişaf, insan kapitalı və iqtisadi artım arasındakı əlaqə**




**Mənbə:** Kibritçioğlu, 1998: 217

**Texnologiya:** İqtisadi böyümənin mühərriki kimi texnoloji inkişaf, bilik və insan kapitalı görülür. İqtisadi inkişaf üçün insan kapitalına qənaət edilməlidir və insan resurslarına investisiyalar qoyulmalıdır. Əmək və texnoloji üzərində insan resursları məhsuldarlığı artırmaq gücünə malikdir.

Şəkil 3-də göründüyü kimi insan kapitalında yaranan müsbət dəyişikliklər və texnoloji inkişaf nəticəsində bilik yaranır və ortaya çıxan yeniliklər iqtisadi artıma təsir göstərir. İnsan kapitalından iqtisadi artıma düzgün effekt yaradıcılıq və edərək öyrənmək yolu ilə baş verir. Yəni, insan kapitalının tərifindəki bacarıq (yaradıcılıq) və təcrübə (edərək öyrənmə) ilə bu münasibət qorunur.

Ölkəmizdə insan kapitalının inkişafının göstəricilərinin beynəlxalq aləmdə qiymətləndirilməsi zamanı alınan nəticələr daha böyük əhəmiyyət kəsb edir. Ölkələrin İnsan İnkişafı reytinqi Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının hər il nəşr etdiyi "İnsan İnkişafı Hesabatı" (İİİ) çərçivəsində tərtib edilən İnsan İnkişafı İndeksinə əsaslanır. İnsan İnkişafı İndeksi ölkələrdə insan inkişafının, digər sözlə insan rifahının vəziyyətini müqayisəli şəkildə qiymətləndirməyə imkan verən 4 göstərici - "doğulanda gözlənilən ömür müddəti", "təhsilin orta müddəti",

“gözlənilən təhsil müddəti” və satınalma gücü paritetli “adambaşına Ümumi Milli Gəlir” əsasında tərtib edilir. Azərbaycan 1995-ci ildən Hesabat çərçivəsində tədqiq olunan ölkələr siyahısındadır və hər il İnsan İnkişafı İndeksini yüksəldən ölkələr sırasındadır. Belə ki, 1995-ci ildə Azərbaycanın İnsan İnkişafı İndeksi 0,563 olduğu halda, Cədvəl 6-dan da (Əlavə 1) göründüyü kimi 2019- cu ildə 0,754 olmuşdur. Eyni zamanda cədvəl məlumatlarının təhlili göstərir ki, Azərbaycan 2019-ci ildə İnsan İnkişafı İndeksinə görə 189 ölkə arasında 87-ci ölkədir və bu göstərici üzrə keçmiş sovet respublikalarından Türkmənistan, Tacikistan, Özbəkistan, Qırğızıstan və Ukraynadan öndədir.

